QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 106 (5337) 15 **iyun** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi"

*"Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir"*



Səh 2

7

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan konfrans keçirilib



10

DSX-in xüsusi məktəbində məzunların buraxılışına həsr olunmuş tədbir keçirilib



16

Madrid prokurorluğu Ronaldonu vergi fırıldaqçılığında ittiham edir



# İlham Əliyev: "Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi"

*"Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir"*

**Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edib**



Böyük Qayıdışın başlanğıcı olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası artıq başa çatıb. AZƏRTAC xəbər verir ki, iyunun 14-də Cocuq Mərcanlı kəndinə səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan kənddə görülən işlərlə tanış olub. Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan, lakin ordumuzun şücaəti sayəsində azad edilən, dövlətimizin başçısının xüsusi diqqəti sayəsində qısa müddətdə yenidən qurulan bu kənd indi öz möhtəşəmliyi ilə diqqət çəkir. 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələrək Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən ümummilli lider Heydər Əliyev tezliklə ölkədəki ağır vəziyyəti nəzarətə götürdü, ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atdı. Məhz Ulu Öndərin qətiyyəti və iradəsi sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bu qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kənd 2016-cı ildə Prezident İlham Əliyevin tarixi xidmətləri sayəsində ikinci həyatını yaşamağa başladı. Buna ötən ilin aprelində qəhrəman Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində nail olundu. Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. 2016-cı ilin noyabrında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən işğal altında qalan torpaqlarımıza qayıdacağımıza bir daha əminlik yaratdı. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Bu məsələdə dövlətimizin başçısının 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazinin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsini həyata keçirdi, həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirildi. Bununla da kənddə böyük quruculuq işlərinə başlandı. Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən bərpa işlərinin birinci mərhələsi artıq başa çatıb və Cocuq Mərcanlı öz sakinlərini qəbul etməyə hazırdır.




Ardı Səh. 3

# İlham Əliyev: “Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi”

*“Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir”*







**Prezident İlham Əliyev kənd sakini Oqtay Həziyevin evi ilə tanış olub**

Əvvəli-Səh-2

Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha təsdiqləyir ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunması uğrunda son ana qədər mübarizə aparacaq.

Azərbaycan Prezidenti İlham Əliyev Cocuq Mərcanlı kəndinə səfəri çərçivəsində əvvəlcə yeni salınmış kənd yolunun açılışını etdi.

“Azəravtoyol” ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, yolun ümumi uzunluğu 9 kilometr, eni 12 metrdir. İki hərəkət zolaqlı yolun tikintisi Prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı “Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncama əsasən həyata keçirilib. Strateji əhəmiyyəti ilə seçilən bu yolun inşası zamanı zəruri olan yerlərdə su keçidləri tikilib, uzunluğu 24 metr olan ikiaşırımlı mövcud körpü bərpa edilib. Yol üzərində 76 yol nişanı və məlumatverici lövhələr quraşdırılıb, piyada zolaqları, yol-cizgi və yolgöstərici xətləri çəkilib. Sonra dövlətimizin başçısı yeni salınmış yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Cocuq Mərcanlı kəndinin bərpası çərçivəsində görülən işlərlə tanışlıq zamanı kənd sakini Oqtay Həziyevin evində oldu. Səkkiz nəfərlik bu ailə təhlükəli olmasına baxmayaraq, 1994-cü ilin aprelindən kənddə yaşayır və bütün məcburi köçkünlərə nümunə olmaqla yanaşı, əsl vətənpərvərlik və fədakarlıq göstərir. Birinci mərhələdə kənddə 10 hektar ərazidə 50 fərdi evin və müvafiq infrastrukturun tikintisi aparılıb. Tikilmiş evlərə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan və əsasən Bakı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər köçürüləcək. Ümumi sahəsi 3850 kvadratmetr olan mənzillərin 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır.

Oqtay Həziyevin ailə üzvləri ilə söhbət edən Prezident İlham Əliyev dedi:

-Bu gün ölkəmizin həyatında əlamətdar gündür, tarixi bir gündür. Bu gün Cocuq Mərcanlı kəndinin bərpası günüdür. Mən sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə təbrik edirəm. Cocuq Mərcanlı kəndinin bərpası doğrudan da tarixi hadisədir. Siz - bu kənddə yaşayan insanlar bu kəndin tarixini yaxşı bilirsiniz. İndi bütün Azərbaycan Cocuq Mərcanlı kəndinin tarixini bilir, bütün dünya Cocuq Mərcanlını tanıyır. Bu kəndin Azərbaycan tarixində xüsusi yeri vardır. Siz yaxşı bilirsiniz ki, Cocuq Mərcanlı kəndi cəmi bir neçə ay erməni işğalı altında olub. Bu bir neçə ay ərzində erməni işğalçı qüvvələri kəndi tamamilə dağıtmışdılar, bütün binaları sökmüşdülər. Yəni, Cocuq Mərcanlı kəndi erməni vəhşiliyinin canlı şahididir. 1993-cü ilin dekabrında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilmiş uğurlu Horadiz hərbi əməliyyatı nəticəsində 20-dən çox kənd, o cümlədən Cocuq Mərcanlı kəndi, Horadiz qəsəbəsi, - bu gün Horadiz şəhəridir, - işğaldan azad olundu. Ancaq burada yaşamaq təhlükəli idi. Buna baxmayaraq, Həziyevlər ailəsi burada yaşayıb.

Ardı Səh. 4

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

15 iyun 2017-ci il

# İlham Əliyev: “Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi”

*“Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir”*

**Əvvəli-Səh-3**

Keçən ilin aprelində erməni hərbi təxribatının qarşısını alarkən Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar Azərbaycan torpağını işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı azad edildi və bu gün on minlərlə hektar torpağa Azərbaycan Ordusu nəzarət edir. Lələtəpə yüksəkliyinin qaytarılması nəticəsində Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkün oldu. Mən keçən ilin sonlarında bu bölgədə, Lələtəpədə, işğaldan azad edilmiş torpaqlarda olarkən, hərbçilərlə görüşərkən maraqlandım ki, Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkündürmü, yoxsa yox. Mənə dedilər ki, mümkündür.

Bu ilin yanvar ayında müvafiq Sərəncam imzalandı, Prezidentin ehtiyat fondundan vəsait ayrıldı. Martın 22-dən başlayan tikinti işləri mayın 20-də başa çatdırılmışdır - cəmi iki aya. Yəni, bütün bu tikinti işləri sizin gözünüzün qabağında olub və bu, doğrudan da tarixi hadisədir. Cəmi 2 ay ərzində kəndin bir hissəsi bərpa edildi, birinci mərhələdə 50 ev, məktəb, tarixi Şuşa məscidinin bənzəri





olan məscid tikilib, Horadizdən Cocuq Mərcanlıya yol çəkilib. Növbəti mərhələdə təqribən 100 əlavə ev, - bəlkə ondan da çox, - tibb məntəqəsi tikiləcək və iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Bax, Cocuq Mərcanlı kəndinin tarixi bundan ibarətdir, bu, doğrudan da şanlı tarixdir. İşğaldan əziyyət çəkən kənd bərpa olunubdur. Azərbaycan öz torpaqlarının bir hissəsini işğalçılardan azad etdi. Bu, doğrudan da tarixi hadisədir və əminəm ki, Cocuq Mərcanlı kəndinin gələcək həyatı uğurlu olacaq, xoşbəxt olacaq və kənd sakinləri buraya qayıdandan sonra həyat daha da canlanacaqdır.

Sabah Qurtuluş Günüdür. Biz Qurtuluş Gününün ərəfəsində görüşürük. Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir. Təəssüf ki, ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk günlərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, bir qarış torpaq belə işğal altına düşməzdi. Əfsuslar olsun ki, müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik etmiş şəxslər zəiflik, qorxaqlıq göstərdilər. O ki qaldı, AXC-Müsavat cütlüyünün hakimiyyətinə, o, biabırçı dövr idi, xəyanətkar hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Qurtuluş Günü bugünkü reallıqları şərtləndirən gündür. Təsəvvür edin, əgər ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk illərindən Azərbaycanda hakimiyyətdə olsaydı, biz özümüzü böyük bəlalardan qoruya bilərdik.

Ancaq işğala baxmayaraq, bu gün Azərbaycan inkişaf edir, güclənir, güclü iqtisadiyyat qurub, beynəlxalq arenada öz mövqelərini möhkəmləndirir. Biz hərbi sahədə böyük uğurlara nail olmuşuq, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha göstərdi.

***Ardı Səh. 5***

# İlham Əliyev: “Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi”

*“Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir”*

Əvvəli-Səh-4

Biz bunu bilirdik, Azərbaycan ictimaiyyəti də bilirdi. Ancaq aprel döyüşləri bunu əyani şəkildə bütün dünyaya və düşmənə göstərdi ki, bu gün Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etməyə hazırdır, buna qadirdir.

Cocuq Mərcanlı kəndi artıq sizin adınızla bağlıdır. Kəndi sizdən ayırmaq mümkün deyil, sizi də kənddən. Siz bunu sübut etmisiniz. Mən maraqlanmışam, bilirəm ki, siz başqa yerdə yaşaya bilməmisiniz və müəyyən müddətdən sonra kəndə qayıtmısınız. Yenidən burada həyat qurmusunuz, kəndə nəfəs vermisiniz, böyük təsərrüfat yaratmısınız və öz doğma torpağınızda həyatınızı riskə qoyaraq təhlükə altında yaşamışınız. Bütün bu çətinliklərə, risklərə baxmayaraq, burada güllə altında, mərmi altında yaşamısınız, qurmusunuz və vətənpərvərlik nümunəsi göstərmisiniz. Göstərmisiniz ki, Azərbaycan xalqı öz torpağına canı, qanı ilə bağlıdır. Göstərmisiniz ki, Azərbaycan vətəndaşı istənilən şəraitdə öz torpağında yaşayır, qurur, yaradır, hətta təhlükə altında. Yəni, bir gün yox, bir həftə yox, hər gün gecə-gündüz təhlükə altında 20 ildən çox yaşamısınız. Buna görə sizinlə bütün Azərbaycan xalqı fəxr edir. Siz ən yüksək qiymətə layiqsiniz. Mən sizinlə fəxr edirəm.

Bilirsiniz ki, bir neçə ay bundan əvvəl mənim göstərişimlə Azərbaycanda dövlət ordenləri sırasına yeni orden də əlavə olundu - “Əmək” ordeni. Bu qərar ona görə qəbul edildi ki, bu gün biz zəhmətkeşləri gərək xüsusi fərqləndirək, mükafatlandıraq. “Əmək” ordeninin 3 dərəcəsi var və bu ordeni təsis edərkən mən fikirləşirdim ki, birinci ordeni kimə verim. Amma çox fikirləşmədim və qərara gəldim ki, birinci ordeni Həziyev ailəsinin başçısı olan Oqtay Həziyevə verim. Sən buna layiqsən və hesab edirəm, tam ədalətlidir ki, birinci “Əmək” ordeni və birinci dərəcəli orden Oqtay Həziyevə verilir.

Sonra doğma torpaqlara dərin bağlılıq nümayiş etdirməklə insanların vətənpərvərlik hisslərinin yüksəldilməsində göstərdiyi şəxsi nümunəyə görə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyevin 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin imzaladığı Sərəncam oxundu.

Dövlətimizin başçısı birinci dərəcəli “Əmək” ordenini və evin orderini Oqtay Həziyevə təqdim etdi.

Oqtay Həziyev: Çox sağ olun, cənab Prezident. Allah canınızı sağ eləsin. Biz Sizə minnətdarıq.

Cənab Prezident, icazə verin, bizim ailəyə göstərdiyiniz diqqətə və qayğıya, mənə verdiyiniz yüksək dəyərli ordenə görə Sizə öz adımdan, ailə üzvlərimin və yaxınlarımın adından dərin təşəkkürümü bildirim. Çox sağ olun, cənab Prezident.




Ulu Öndərimizə Allahdan rəhmət diləyirik. Siz çox gözəl qeyd etdiniz, bu müharibənin əzabını yaşayan bir insan kimi bilirdik ki, əgər Ulu Öndərimiz əzəldən bu hakimiyyətdə olsaydı, biz bu torpaqlardan heç vaxt getməzdik. Allah Sizin canınızı sağ eləsin. Biz Sizin komandanlığınız altında Lələtəpə yüksəkliyinin işğaldan azad olunmasının canlı şahidiyik. Maşallah, indi bizim çox qüdrətli Ordumuz var. Təməli Ulu Öndərimiz tərəfindən qoyulan ordumuzu Ali Baş Komandan kimi Siz əvəzi olmayan bir orduya çevirmisiniz. Yəni, bunu mən birmənalı olaraq öz gözümlə görmüşəm. İndi mən bilmirəm o ermənilər nəyə arxalanırlar. Məgər onlar görmürlər ki, Azərbaycan dövlətinin İlham Əliyev kimi Prezidenti və onun komandanlığı altında güclü ordusu var.

Çox sağ olun, cənab Prezident. Qısa müddətdə bizə belə gözəl həyat bəxş etmisiniz. Bizim kənddə heç zaman məscid, qaz, internet olmayıb. Bizə bunların hamısını Siz bəxş etmisiniz. Biz Sizə Allahdan cansağlığı, uzun ömür diləyirik. Biz bu fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanımı bir daha təbrik edirik. Mehriban xanım bu vəzifəyə layiq insandır. İnanırıq ki, cənab Prezident, Siz Mehriban xanımla bərabər işğal altında olan bütün ərazilərimizi azad edəcəksiniz, Azərbaycanın hər bir guşəsində belə gözəllikləri yaradacaqsınız.



Prezident İlham Əliyev: Burada bütün şərait yaradılıb. Qohumlarınız, qonşularınız da qayıdacaqlar. Bu gün Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq.

İşğal böyük ədalətsizlikdir, beynəlxalq qanunların pozulması deməkdir. Ancaq əfsuslar olsun ki, dünyada ikili standartlar mövcuddur. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxsın. Ermənistan buna əməl etmir. Bu qətnamələri qəbul edənlər də Ermənistanı məcbur etmir ki, o, buna əməl etsin. Bax, problem bundan ibarətdir.

Ancaq biz ölkəmizi böyük dərəcədə gücləndirmişik. Bir daha deyirəm, əgər müstəqilliyimizin ilk illərində Ulu Öndər ölkəmizdə hakimiyyətdə olsaydı, heç bir problem yaşanmazdı. Ermənilər Naxçıvanı da işğal etməyə çalışırdılar. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə orada bütün müdafiə tədbirləri quruldu və düşmən yerinə oturduldu. Əfsuslar olsun ki, o vaxtkı Azərbaycan rəhbərliyi ölkə miqyasında müdafiə məsələlərini düzgün təşkil edə bilmədi və torpaqlarımız işğal altına düşdü. Ancaq biz ölkəmizi, Ordumuzu gücləndiririk və ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bax, bu kənd - Cocuq Mərcanlı bunu əyani şəkildə sübut edir və təsdiqləyir.

Oqtay Həziyev: Çox sağ olun, cənab Prezident, Sizə minnətdarıq. Allah Sizi qorusun. Bu, qardaşımdır, o da həyat yoldaşımdır.

Əli Həsənov: Heyvandarlıqla məşğuldurlar, öz təsərrüfatları, 600 baş qoyunu, 70-80 baş inəyi və 20 arı ailəsi var.

Prezident İlham Əliyev: Dolanışığınız yaxşıdır?

Əli Həsənov: 70 hektarda taxıl, arpa əkir. Demək, yalnız çaya, qəndə, bir də paltara pul verirlər. Qalan şeyə pul vermirlər.

Prezident İlham Əliyev: Eşitmişəm ki, orduya da kömək göstərirsiniz.

Əli Həsənov: Bəli, edir. Çox gözəl ailədir, hamısı da sağlam, göz dəyməsin, ana 83 yaşındadır.

Prezident İlham Əliyev: Çox yaxşı. İndi məktəb də olacaq, uşaqlar burada oxuyacaqlar. Tezliklə tibb məntəqəsi də tikilməlidir. İş yerləri də açılır. Mən xüsusi göstəriş vermişəm ki, dövlət qurumları burada iş yerləri açsınlar. Çünki buraya qayıdacaq vətəndaşlar gərək işləsinlər.

Əli Həsənov: “Azərişıq” 35/10 kilovatlıq böyük yarımstansiya tikibdir. “Azəravtoyol” Cəbrayıl rayonunun ləğv olunmuş avtomobil yolları idarəsini bərpa edib, böyük gözəl bir bina tikib, artıq hazırdır. Daxili İşlər Nazirliyi polis idarəsi üçün bina tikibdir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bütün rabitə-kommunikasiya xidməti üçün yer götürüb, bina tikir. Bütün nazirliklər məşğuldur.

Prezident İlham Əliyev: Biz tezliklə növbəti tikinti işlərinə də start verməliyik.

Əli Həsənov: Artıq yüz ailəlik layihə işləri gedir və tezliklə o da tamamlanacaqdır.

Prezident İlham Əliyev: Bir daha sizi təbrik edirəm.

Oqtay Həziyev: Çox sağ olun, cənab Prezident.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

### Cocuq Mərcanlının məktəblərinə dəyərli töhfə

Azərbaycan Prezidenti İlham Əliyev Cocuq Mərcanlıya səfəri çərçivəsində yeni inşa olunan 96 şagird yerlik məktəblə tanış oldu.

Ardı Səh. 6

# İlham Əliyev: "Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi"

*"Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir"*

Əvvəli-Səh-5



AZƏRTAC xəbər verir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əvvəlcə müdafiə naziri Zakir Həsənov, Baş Qərargah rəisi Nəcməddin Sadıkov və ikinci korpusun komandiri Mayis Barxudarovla görüşdü. Sonra Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov və Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Prezident İlham Əliyevə məlumat verdilər ki, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən görülən işlər nəticəsində kənddə küçələrdə işıqlandırma sistemi qurulub, su, qaz, telefon xətləri çəkilib, subartezian quyusu qazılıb, 100 kubmetrlik su anbarı inşa edilib. Yollara və səkilərə asfalt örtüyü salınıb, yaşıllaşdırma işləri aparılıb. Kənddə müasir standartlara cavab verən yeni yarımstansiya inşa edilib. Yeni Komplekt Transformator Məntəqəsi, həmçinin subartezian quyusuna xidmət edəcək transformator quraşdırılıb.

Bununla da Cocuq Mərcanlı qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş sayca 96-cı, məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşüb. Qeyd edək ki, Cocuq Mərcanlı kəndində hazırda 400 ev təsərrüfatı, 1428 sakin qeydiyyatdadır. Kəndin əhalisinin əksəriyyəti yığcam şəkildə Biləsuvar rayonu ərazisində salınmış məcburi köçkün qəsəbələrində məskunlaşıb. Respublikanın 17 şəhər və rayonunda müvəqqəti yaşayan həmin ailələrdən 250-dən çoxu müraciət edərək öz yurdlarına qayıtmaq arzusunda olduqlarını bildiriblər.

Məktəbdə Cəbrayılın işğaldan əvvəlki vəziyyəti, rayonun tanınmış xadimləri, ali məktəblərə yüksək balla qəbul olan rayonun məzunları, bu kənddə ermənilərin törətdikləri vandalizm, vəhşilik, 23 il doğma kəndini tərk etməyən Həziyevlər ailəsi, Prezident İlham Əliyevin tapşırığı ilə xarici KİV nümayəndələrinin, diplomatik korpusun və beynəlxalq təşkilatların rəhbərlərinin Cocuq Mərcanlı kəndinə səfərləri əks olunan fotostendlər kənd haqqında dolğun təəssürat yaradır. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü, dahi rəhbərin məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən fotostend qoyulub. Dəhlizdə rəşadətli Azərbaycan Ordusunun uğurlu aprel döyüşləri, Cocuq Mərcanlı kəndinin bərpadan əvvəlki və sonrakı görüntülərinin əks olunduğu stendlər yer alıb. Sinif otaqları, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinələri, müəllimlər otağından ibarət məktəb binası lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Məktəbdə olarkən Prezident İlham Əliyev hərbi məktəblərin kursantlarının bir qrupu ilə görüşdü.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Sənan Əsədov dedi:

-Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bu gün Sizinlə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində görüşmək bizim üçün şərəfdir. Cocuq Mərcanlı kəndində görülən işlər və yaradılan şərait ölkəmizdə hər bir sahədə gedən dinamik inkişafın bariz nümunəsidir. İnkişaf hərb sahəsində də özünəməxsus şəkildə gedir. Bu inkişafa, bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə bütün hərbi qulluqçular adından dərin minnətdarlığımızı bildiririk.

Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda verəcəyiniz hər bir əmrə mən və bütün hərbi qulluqçular daim hazırıq.

X X X

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının kursantı Rəşad Aliyev:

"Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini olaraq, bu gün burada Sizinlə görüşməyimlə fəxr və qürur hissi keçirirəm. Valideynlərim Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri olsalar da, təəssüf hissi ilə bildirirəm ki, məcburi köçkün kimi Biləsuvar rayonu ərazisində yerləşən çadır şəhərciyində doğulmuşam. Ulu öndər Heydər Əliyevin apardığı siyasət və səyi nəticəsində 1994-cü ildə Cocuq Mərcanlı kəndinin və Sizin rəhbərliyiniz altında isə 2016-cı ildə aprel döyüşlərində bir çox strateji yüksəkliklərin erməni işğalından azad edilməsi biz kursantları daha da ruhlandırdı. Sizin Sərəncamınızla Cocuq Mərcanlıda yeni evlər, məktəb inşa edilmişdir. Bunun üçün Sizə Cocuq Mərcanlı kəndinin sakinləri adından minnətdarlığımızı bildiririk. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyi uğrunda Sizin rəhbərliyiniz altında Vətən torpaqlarını işğaldan azad etməyə hər an hazırıq."

X X X

Prezident İlham Əliyev: Sağ olun. Bu gün tarixi bir gündür, Cocuq Mərcanlı kəndinin bərpası günüdür və bu, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu ölkəmizdə uğurla gedir. Ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir və son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir, ordumuza lazım olan bütün ən müasir texnika, silah-sursat alınır, gətirilir, eyni zamanda, Azərbaycanda bir çox hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab vermişdir. Üç rayonun ərazilərinin bir hissəsi işğalçılardan azad edildi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əks-hücum əməliyyatı nəticəsində bu gün Cocuq Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır. Onlar 20 ildən çoxdur ki, bu yurdun həsrəti, öz doğma torpağına qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, başqa yerdə doğulmusan, sən də Cocuq Mərcanlı kəndinin sakinisən. Amma əminəm, sənin kimi yüzlərlə gənc var ki, Cocuq Mərcanlını görməyib, ancaq buraya qayıtmaq arzusu ilə yaşayır. Bax, bu gün gəldi, bu, tarixi bir gündür. Bu gün, eyni zamanda, onu göstərir ki, biz hələ də işğal altında olan bütün torpaqlara qayıdacağıq. Bunu deməyə əsas verən bir çox amillər var. Güclü iqtisadiyyat, güclü Azərbaycan, güclü Ordumuz və keçən ilin aprel ayında aparılan döyüşlər Azərbaycan xalqının, Ordusunun gücünü, cəsarətini göstərdi.

Bu gün biz Cocuq Mərcanlıda yeni gözəl mərhələnin başlanğıcını qeyd edirik. Yeni evlər, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilibdir. Növbəti mərhələdə ən azı 100 əlavə ev tikiləcək və Cocuq Mərcanlı kəndinin sakinləri buraya qayıdacaqlar. Siz isə gənc zabitlər kimi gələcəkdə ölkəmizin müdafiəsinin keşiyində dayanacaqsınız. Bütün gənclər kimi siz də hər an Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hazır olmalısınız. Bu gün Azərbaycan gənci vətənpərvərdir, Vətənə bağlıdır, peşəkardır, biliklidir və bizim gücümüz bundan ibarətdir. Sizin kimi gənclər gələcəkdə ölkəmizin inkişafında önəmli rol oynayacaqlar. Sizə uğurlar diləyirəm. Sizi bu tarixi hadisə münasibətilə təbrik edirəm və Azərbaycan Ordusuna yeni qələbələr arzulayıram. Sağ olun.

X X X

Qeyd edək ki, məktəbin həyətində qazanxana, voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıqlar salınıb. Bu məktəbdə dərs deyəcək müəllimlər və təhsil alacaq uşaqlar indi ikiqat sevinc hissi keçirirlər.

### Cocuq Mərcanlıda tikilmiş məscidlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Məscidin tikilməsi, həmçinin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dəyərli töhfədir. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev məsciddə yaradılan şəraitlə tanış oldu. Azərbaycan Prezidentinə Qurani-Kərim hədiyyə edildi.

Dövlətimizin başçısına məlumat verildi ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında müstəsna xidmətlər göstərir. Dövlətimizin başçısı İslam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir. Məscidlə tanışlıq zamanı xatirə şəkilləri çəkdirildi.

### Cocuq Mərcanlıda bərpa işləri davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidlə tanışlıqdan sonra Cocuq Mərcanlı kəndinin ərazisini gəzdi.

Dövlətimizin başçısına kəndin ərazisində görülməsi nəzərdə tutulan işlər barədə ətraflı məlumat verildi. AZƏRTAC xəbər verir ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 23 ildə 6 milyard manatdan çox vəsait sərf olunub. Ümumilikdə indiyədək 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Bunun da 95 faizi son 13 ildə inşa edilib. Görülən işlər nəticəsində 50 min ailənin və ya 250 min nəfər qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Hazırda 80 min ailə və ya 340 min məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyac var. Bu il Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün dördmərtəbəli 34 yaşayış binasının tikintisinin başa çatdırılması nəzərdə tutulur. Artıq Abşeron rayonunun Masazır və Ramana qəsəbələrində yaşayış binalarının tikintisinə başlanılıb, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yeni yaşayış kompleksinin təməli qoyulub.

Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndində görülən işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan konfrans keçirilib



İyunun 14-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan "Azərbaycan dünyaya günəş kimi doğacaq" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətinə dair qısa film nümayiş olunub. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin Milli Qurtuluş Gününün əhəmiyyəti, ulu öndər Heydər Əliyevin titanik fəaliyyəti barədə fikirlərinin təqdim olunduğu filmdə, həmçinin Ümummilli Liderin müəllifi olduğu dövlət gənclər siyasəti çərçivəsində bu sahəyə göstərilən diqqət və qayğıya dair görüntülər nümayiş etdirilib. Baş nazirin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədov konfransda çıxış edərək 15 İyunun Azərbaycan tarixində özünəməxsus yerindən danışıb, bu günün xalqımızın taleyində dönüş anı olduğunu vurğulayıb. Baş nazirin müavini Azərbaycanın müasir tarixində iki önəmli hadisənin - müstəqilliyin bərpasının və Milli Qurtuluş Gününün önəmini diqqətə çatdırıb. Müstəqilliyin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran Əli Əhmədov ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlanıldığını, cəmiyyətin inkişaf üçün fundamental əsasların yaradıldığını bildirib. Qeyd edib ki, Ulu Öndərin işləyib hazırladığı müasir müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub.

Azərbaycanın sürətlə inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan Əli Əhmədov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb. Milli Qurtuluşun Azərbaycanın müasir tarixində böyük bir dövrü əhatə etdiyini deyən Baş nazirin müavini bildirib ki, Azərbaycan öz inkişafına görə XX əsrin sonunda müstəqilliyinə qovuşan respublikalardan açıq şəkildə seçilir. Son 13 il ərzində Azərbaycan iqtisadiyyatının 3,5 dəfə böyüməsi, əhalinin rifah halının yaxşılaşması bu inkişafın əsas göstəriciləridir.

Prezident İlham Əliyevin liderliyi ilə bu gün Azərbaycanın öz inkişafının yeni mərhələsini yaşadığını qeyd edən Əli Əhmədov deyib ki, ölkəmizin iqtisadi transformasiyasının əsas səbəbi iqtisadiyyatın daha da gücləndirilməsi, insanların rifahı üçün daha əlverişli şəraitin təmin olunması, bütün bu uğurlara nail olunmasında yeni üsul və vasitələrdən istifadə edilməsidir. Prezidentin rəhbərliyi ilə reallaşdırılan islahatlar iqtisadiyyatın şaxələndirilməsi, Azərbaycanın yeni mərhələdə daha sürətli inkişafını təmin etmək məqsədini güdür. Baş nazirin müavini bu islahatlar nəticəsində Azərbaycanın daha sürətlə inkişaf edəcəyinə əminliyini diqqətə çatdırıb.

Azərbaycanda dövlətçiliyin qorunmasında, ölkəmizin tərəqqisində YAP-ın rolunu xüsusi vurğulayan Əli Əhmədov partiyanın sıralarında birləşən 700 min insanın ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq, partiyanın sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafına mühüm töhfələr verdiyini bildirib.

YAP Siyasi Şurasının üzvü, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov 1993-cü il iyunun 15-nin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında mühüm başlanğıc nöqtəsi olduğunu qeyd edib. Bildirib ki, xilaskarlıq missiyasını öz üzərinə götürərək hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın geosiyasi imkanlarından istifadə edərək müstəqilliyi qoruyub saxlamağa, ölkəmizi sürətli inkişaf yoluna çıxarmağa, xalqımızın milli-mənəvi sərvətlərimizə sahib çıxmasına, dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının vahid məfkurə ətrafında birləşdirilməsinə nail oldu.

Vurğulanıb ki, Ulu Öndərin uzaqgörən siyasətini müasir dövrün tələbləri əsasında daha da inkişaf etdirən Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycan dünya birliyində özünə layiqli yer tutan, davamlı inkişafını təmin edən qüdrətli ölkəyə çevrilib. Ölkəmizin sürətli inkişafında Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın da xidmətlərini xüsusi vurğulayan A.Əsgərov respublikamızın uğurlu inkişafının paytaxtın Nəsimi rayonunun sosial-iqtisadi mənzərəsində də əksini tapdığını bildirib.

Azərbaycan Dillər Universitetinin kafedra müdiri Aynur Sabitova ulu öndər Heydər Əliyevin ölkəmizdə gender siyasətinin müəllifi olduğunu qeyd edib. O, ulu öndər Heydər Əliyevin Azərbaycan qadınını mütəşəkkil qüvvə kimi səfərbər edərək ölkəmizin inkişafına mühüm töhfələr verməsinə əlverişli şərait yaratdığını diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva uğurlu fəaliyyəti ilə ölkəmizdə qadın hərəkatının inkişafında yeni mərhələnin başlanmasına töhfə verib. Xanım Mehriban Əliyevanın UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi fəaliyyəti Azərbaycan qadınının uğurlarının təntənəsidir.

YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin üzvü Elnurə Cəfərzadə Milli Qurtuluş Gününün müasir Azərbaycan gənclərinin inkişafında yeri və rolunu xüsusi vurğulayıb. Qeyd edib ki, gənclərimiz Milli Qurtuluş Gününün əhəmiyyətini, ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərini dərindən öyrənməli, Prezident İlham Əliyevin həyata keçirdiyi və ölkəmizin sürətli inkişafını təmin edən dövlət siyasətinə sadiq qalaraq, Azərbaycanın tərəqqisinə mühüm töhfə verməlidirlər.









# "Münaqişənin həll olunmamış qalması bölgədə gərginliyin artmasına xidmət edir"

*"ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfərindən gözləntimiz ondan ibarətdir ki, onlar ədalətli qərar qəbul olunması üçün daha ciddi şəkildə çalışsınlar. Vəzifələrini təkcə regiona səfər etməklə bitmiş bilməsinlər". SİA-nın verdiyi məlumata görə, bunu dünən jurnalistlərə açıqlamasında Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini-İcra katibi Əli Əhmədov deyib.*

Onun sözlərinə görə, ATƏT-in Minsk Qrupu uzun illərdir fəaliyyət göstərir, amma Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün lazımi addımlar atılmır: "Müəyyən işlər görürlər. Onların fəaliyyətinə ədalətsiz qiymət vermək istəmirəm. Amma münaqişənin həll olunması üçün bizim istədiyimiz, məc-



buri köçkünlərimizin həyatının yaxşılaşdırılması üçün arzuladığımız əsas işlər görülməyib. Torpaqlarımız azad olunmayıb və insanlarımızın öz yurd-yuvasına qayıtması üçün şərait yaradılmayıb. Bizim onlardan gözləntimiz bunlardır. Bu yaxınlarda müxtəlif bəyanatlar səsləndiriblər. Əsas bəyanat o olmalıdır ki, nəhayət, bu problem öz həllini tapsın. Bu problem həddən artıq çox uzandı. Problemin uzanması insanlara qarşı olan ədalətsizliyin davam etməsidir. Münaqişənin həll olunmamış qalması bölgədə gərginliyin artmasına xidmət edir".

## Bəhruz Quliyev: "Azərbaycanın xilası və qurtuluşu məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır"



*"15 İyun - Milli Qurtuluş Günü xalqımızın tarixində dönüş nöqtəsidir. 1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və müstəqilliyini itirmək təhlükəsindən, xaos və anarxiyadan, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas olub". Bu fikirləri "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev deyib.*

B.Quliyev bildirib ki, müstəqil Azərbaycanın xilası və qurtuluşu məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilin iyun ayında ölkədə böhran acınacaqlı həddə çatmışdı. Məhz tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 15 iyun tarixində Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Respublikası parlamentinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində yeni bir mərhələnin başlanğıcı oldu.

"Ümummilli lider uzaqgörən və müdrik siyasəti ilə xalqımızı, dövlətimizi düşdüyü ağır vəziyyətdən xilas etdi, inkişaf yoluna çıxardı. Azərbaycanda vətəndaş müharibəsinin qarşısı alındı, separatçı qüvvələr zərərsizləşdirildi, ictimai-siyasi sabitlik bərpa olundu, demokratik və hüquqi dövlət quruculuğu prosesinə başlanıldı. Ölkənin sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu sayəsində Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənib, ölkəmiz dünya birliyinin layiqli üzvünə çevrilib"- deyə, B.Quliyev qeyd edib.

## Nizami rayonunda "Son zəng" tədbiri keçirilib



Dünən Nizami rayonu 32 saylı orta məktəbdə "Son zəng" tədbiri keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva, Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov, rayonun idarə və müəssisələrinin nümayəndələri iştirak ediblər. "Son zəng" tədbiri Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra şagirdlərin müşayiəti ilə Azərbaycan Respublikasının üçrəngli bayrağı mərasim keçirilən əraziyə gətirilib. Məktəbin direktoru Sevda Abdullayeva şagirdlərin yerli və beynəlxalq olimpiadalarda əldə etdikləri uğurlardan danışıb. Tədbirdə çıxış edən Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov "Son zəng" münasibəti ilə məzunları təbrik edib, onlara gələcək həyatlarında uğur və nailiyyətlər arzulayıb.

Məzunların həyatında yeni mərhələnin açıldığını deyən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı S.Vəliyeva isə onların hər birinin müstəqil Azərbaycanın vətəndaşı olaraq ölkəmizin gələcək inkişafı naminə atılan bütün addımlarda təmsil olunacaqlarına əminliyini vurğulayıb.

Mərasim məktəbin şagirdlərinin hazırladıqları "Son zəng" ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

***Samir***

## "Milli Qurtuluş Günü bütün bayramlarımızın açarıdır"



Dünən YAP Şəmkir rayon təşkilatının təşkilatçılığı ilə Milli Qurtuluş Günü münasibətilə Dövlət Sosial Müdafiə Fondunun Şəmkir rayon şöbəsinin inzibati binasının akt zalında tədbir keçirilib. Tədbirdə YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev "Milli Qurtuluş Günü bütün bayramlarımızın açarıdır" mövzusunda məruzə ilə çıxış edib. O, Milli Qurtuluş Gününün dövlətçilik tariximizə dönüş nöqtəsi kimi daxil olduğunu qeyd edib. Bildirib ki, 1993-cü il iyunun 15-də müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olub. Məhz 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən gələn Ulu Öndər Azərbaycanı parçalanmaqdan, məhv olmaq təhlükəsindən və vətəndaş müharibəsindən xilas edib: "Bu gün Prezident İlham Əliyev Ulu Öndərin siyasi-ideoloji kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin etməklə, Azərbaycanın inkişaf strategiyasını uğurla həyata keçirməklə, müstəqilliyimizi möhkəmləndirməklə, dövlətçiliyimizi qüdrətləndirməklə Heydər Əliyevin ideyalarını yaşadır, inkişaf etdirir, ölkəmizi aydın sabahlara aparır. Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri var. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərib, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul edib".

Fəxrəddin Vəliyev qeyd edib ki, bütün deyilənləri zamanın dahisi, böyük xilaskar Heydər Əliyev siyasətinin təntənəsi hesab etməliyik. Ulu Öndər Heydər Əliyev siyasəti yolumuza daim işıq saçır və bizi zəfərlərə aparır. Azərbaycanın güclü, qüdrətli dövlətə çevrilməsi, regionların sürətlə müasirləşməsi, xalqın rifah halının günbəgün yaxşılaşdırılması Milli Qurtuluş Gününün bizlərə bəxş etdiyi bəhrələridir: "Qədirbilən xalqımız hər zaman Qurtuluş Gününü əziz tutur, bu bayramı böyük sevinc və fərəh hissi ilə qeyd edir. Çünki Ulu Öndərimiz Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində, Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtulub, Milli Qurtuluş yüksək intibaha açılan qapı kimi tariximizdə yeni bir səhifə açıb. Bu səhifə isə, bu gün olduğu kimi, gələcəkdə də müstəqil Azərbaycanın əsas inkişaf modeli olacaq. Əlbəttə ki, qazanılan bütün nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda, Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi Prezident İlham Əliyevin etibarlı əllərindədir".

Tədbirdə digər çıxış edənlər Milli Qurtuluş Gününün ictimai-siyasi, tarixi əhəmiyyətindən və bugünkü müstəqil, güclü Azərbaycan dövlətinin, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin yadigarından bu böyük şəxsiyyətin ölkəmizin qüdrətlənməsinə, xalqımızın rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş siyasəti bu gün dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

***Rəfiqə***

# Ulu öndər Heydər Əliyevin qayıdışı ilə Azərbaycanın müstəqilliyinin dönməzliyi təmin olundu

**-Fəttah müəllim, Azərbaycan xalqı bu günlərdə tariximizə qızıl hərflərlə yazılan 15 İyun - Milli Qurtuluş Gününü böyük təntənə ilə qeyd edir. Ümumiyyətlə, 15 İyun - Milli Qurtuluş Gününün dövlətçilik tariximizdə əhəmiyyəti nədən ibarətdir?**

- Həqiqətən 15 İyun - Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün ən mühüm tarixlərdən, çox böyük bayramlardan biridir. Çünki məhz Milli Qurtuluş Günü sayəsində müasir dünya dövlətləri sırasında sayılan-seçilən indiki nüfuzlu, güclü, müstəqil Azərbaycan dövləti mövcuddur. Müasir Azərbaycan dövləti özünün siyasəti ilə bu gün beynəlxalq aləmdə nümunə olacaq bir dövlətdir. Eləcə də, bu gün dünyanın böhranlı şəraitində uğurlu siyasət nəticəsində Azərbaycan hərtərəfli inkişaf edir və belə bir dövlət qurur yerimizdir. Biz öz dövlətimizlə fəxr edirik.



## Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini Fəttah Heydərovun yap.org.az-a müsahibəsi

Təbii ki, Azərbaycan bugünkü səviyyəyə elə də asan gəlib çatmayıb, çox çətin dövrlərdən keçib. Bilirsiniz ki, SSRİ-nın dağılması ilə müstəqil respublikalar yarandı. Keçmiş SSRİ-nin dağılması prosesi bəzi respublikaların daxilində müəyyən gərginliklərlə müşayiət olundu. Həmin prosesləri təhlil edəndə görürük ki, ən mürəkkəb proseslər məhz Azərbaycanda baş verib. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal olundu və bunun nəticəsində də 1 milyondan çox insan öz doğma yurdlarından qaçqın və məcburi köçkün vəziyyətə düşdü. Yəni o dövrdə xalqımız çox ağır günlər yaşadı.

Prosesləri təhlil edərkən deyə bilərik ki, başımıza gələn bu bəlalar bir sıra amillərlə əlaqədardır. Ən əsası odur ki, həmin dövrdə Ulu öndər Heydər Əliyev Azərbaycanda deyildi. Hakimiyyətinin birinci dövründə öz nəcib əməlləri, Azərbaycan üçün misilsiz xidmətləri ilə Heydər Əliyev xalqın qəlbində özünə abidə ucaltmışdı. Məhz Ulu öndərin sayəsində sovetlər dövründə Azərbaycan sürətlə inkişaf edərək keçmiş ittifaq respublikaları arasında öncül yerə çıxdı. 1980-ci illərin sonu - 90-cı illərin əvvəlində Azərbaycan xalqı sahibsiz qalmışdı. Və başımıza gələn bütün bəlaların kökündə Heydər Əliyevin hakimiyyətdə olmaması idi.

Biz 15 İyun - Milli Qurtuluş Gününü qeyd edərkən hər zaman ilahi bir qisməti daim xüsusi vurğulamalıyıq. Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsi ilə üz-üzə qalanda Ulu öndər Heydər Əliyev Bakıya gələrək xilaskarlıq missiyasını yerinə yetirdi. Amma ilk növbədə Ulu öndərimiz Naxçıvanı xilas etdi. 1990-cı illərin əvvəlində Bakıda təzyiqlərlə üzləşən Heydər Əliyev Naxçıvana pənah gətirdi. Mən deyərdim ki, bu əslində Naxçıvanın şansı idi. Həmin dövrlərdə Azərbaycanın əleyhdarlarının tərtib etdiyi planda təkcə Dağlıq Qarabağın yox, eyni zamanda Naxçıvanın da işğal edilməsi nəzərdə tutulmuşdu. Ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsi bu ərazinin də işğal edilməsinin qarşısını aldı. Ona görə də, hesab edirəm ki, milli qurtuluşumuzun tarixi Ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsi ilə başladı. Xalqın hər bir nümayəndəsinə aydındır ki, Ulu öndər Naxçıvana gəlməsəydi, bu torpaq da xilas olmayacaqdı. Heydər Əliyev Naxçıvana gələrkən insanlar Onu böyük məhəbbət və ehtiramla qarşıladılar. Naxçıvan əhalisi Heydər Əliyevi həm Muxtar Respublikanın, həm də Azərbaycan Respublikasının parlamentinə deputat seçdi. Doğrudur, Ulu öndərimiz bunu istəmirdi, hansısa vəzifə iddiasında olmadığını bəyan edirdi. Amma xalqın istəyi ilə bütün bunlar gerçəkləşdi. Ulu öndər Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçildikdən sonra blokada şəraitində olan bu bölgəni erməni işğalından xilas etdi və onun inkişafı və tərəqqisi üçün misilsiz xidmətlər göstərdi.

Taleyin qismətidir ki, Heydər Əliyevin həyatı Azərbaycan xalqı ilə bağlı olub. Tarix sübut edir ki, Azərbaycan xalqının ən çətin anlarında Ulu öndər Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək xalqı bütün çətinliklərdən xilas edib. 1993-cü ilin o ağır günlərində də xalqımızın yeganə ümid yeri Heydər Əliyev oldu. 15 iyun 1993-cü ildə hakimiyyətə qayıtmaqla Ümummilli liderimiz Heydər Əliyev xalqımızı düçar olduğu bəlalardan, başqa dövlətlərin vassalı olmaqdan, Azərbaycanı parçalanmaqdan xilas etdi. Beləliklə də, Ulu öndər Heydər Əliyevin qayıdışı ilə xalqımızın Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin olunması kimi arzusu yerinə yetdi.

Ona görə də 15 iyun tarixi müqəddəs gündür. Həmin gün Ulu öndərimiz çox ağır bir yükü öz öhdəsinə götürməklə xalqa olan məhəbbətini izhar etdi. Həmin gün Azərbaycan dövlətçiliyinin xilası, bugünkü müstəqilliyimizin əsası, təməl daşı oldu. Həmin günlərə nəzər saldıqda biz bir daha Ulu öndər Heydər Əliyevin nə qədər torpağına, xalqına, müstəqil Azərbaycan ideyasına bağlı olduğuna şahidi oluruq. Heydər Əliyev həyatının mübarək 10 ilini yeni, müstəqil Azərbaycanın yaradılmasına həsr etdi və bu yolun əsaslarını qoydu. Həm ideoloji, həm siyasi, həm sosial-iqtisadi, həm də mədəni sahələrdə ölkəmizdə köklü dəyişikliklər baş verdi. 15 iyundan ötən dövrdən Azərbaycan beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib, dünyada söz sahibi olan nüfuzlu dövlətə çevrilib. Təbii ki, bütün bunlar Ulu öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində əldə olundu. O fəaliyyət ki, Heydər Əliyev Öz həyatını xalqın xoşbəxtliyinə həsr etdi.

**- İnkaredilməz reallıqdır ki, müstəqil Azərbaycan Ümummilli liderin ideyaları - Heydər Əliyev yolu əsasında inkişaf edir...**

- Ümummilli liderimiz Heydər Əliyev öz fəaliyyəti ilə xalqımızın, dövlətimizin inkişafı, gələcəyi üçün işıqlı bir yol açdı. Bu yol sayəsində Azərbaycan bu gün dünya dövlətləri sırasında öz nüfuzu ilə fərqlənir. Heydər Əliyev elə bir şəxsiyyət idi ki, O, Öz dərin məntiqi, zəkası və fəaliyyəti ilə dünya miqyasında diqqəti cəlb edirdi. Bu qabiliyyət Onu SSRİ rəhbərliyinə apardı. Həmin dövrün reallıqları, tarixi hadisələr və faktlar Ulu öndərimizin dünya miqyasında tanınan şəxsiyyət olduğunu göstərir. Məhz təsadüfi deyil ki, Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etməsindən sonra Azərbaycana münasibət dəyişdi, ölkəmizlə əməkdaşlıq edən ölkələrin sayı artmağa başladı.

Ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edərkən Onun müstəqil dövlətçiliyimizin əsaslarının gücləndirilməsi ilə bağlı tarixi və əvəzolunmaz xidmətlərini də ayrıca vurğulamaq lazımdır. Məhz Ulu öndərin gərgin əməyi sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin olundu, müstəqil dövlətimizin ilk Konstitusiyası yaradıldı, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin fəaliyyəti üçün əsaslı zəmin yaradıldı və Azərbaycan inkişaf yolunda əmin addımlarla irəliləməyə başladı.

Bu gün müstəqil Azərbaycan Ümummilli liderin ideyaları - Heydər Əliyev yolu əsasında inkişaf edir. Azərbaycanda Heydər Əliyev yolunun alternativi yoxdur. Çünki bu yol uğurludur, xalqımızı işıqlı gələcəyə aparan yoldur. Məhz Heydər Əliyev siyasəti nəticəsində Azərbaycan bugünkü inkişaf səviyyəsinə gəlib çatıb. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini inkişaf etdirərək ölkəmizə yeni-yeni nailiyyətlər qazandırır.

Bu gün Azərbaycan dünyada nüfuzlu dövlətlər sırasındadır. Təbii ki, bu nailiyyət Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qazanılıb. Dövlətimizin başçısının siyasəti xalqımızın mənafeyinə, xoş sabahına xidmət edir. Təsadüfi deyil ki, Azərbaycan dünya dövlətləri ilə, işğalçı Ermənistan istisna olmaqla qonşu dövlətlərlə iqtisadi, siyasi, mədəni, mənəvi əlaqələri inkişaf etdirir və öz sülhpərvər siyasəti ilə onlara nümunə göstərir. Müstəqil Azərbaycan bir çox beynəlxalq səviyyəli qlobal tədbirlərə ev sahibliyi edir. Çünki dünya dövlətləri ölkəmizi sülh, sabitlik və əmin-amanlıq məkanı kimi qəbul edir. Bəzi faktlara diqqət yetirək. 2015-ci ildə Azərbaycan ilk Avropa Oyunlarına ev sahibliyi etdi və bununla da Oyunların standartlarını müəyyənləşdirdi. Bu kiçik məsələ deyil. Eyni zamanda, hazırda bir sıra müsəlman ölkələrində mürəkkəb proseslərin, qanlı toqquşmaların baş verdiyi bir şəraitdə Prezident İlham Əliyev 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etdi. Həmçinin, ötən ay ölkəmiz 54 müsəlman dövlətinin iştirakı ilə IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi etdi. Bütün bunlar insanlar arasında dostluğu, qarşılıqlı əlaqələri və əməkdaşlığı inkişaf etdirmək, dünyada sülh və sabitliyin bərqərar olunmasına xidmət edir.

**- Ulu öndərin əsasını qoyduğu siyasətin mühüm nəticələrindən biri də Azərbaycanın inkişafı və bu inkişafın paytaxt Bakının, eləcə də bölgələrimizin simasında öz əksini tapmasıdır. Bu barədə nə deyə bilərsiniz?**

- Bu gün bütün dünya - beynəlxalq aləm Azərbaycanın uğurlarına şahidlik edir. İndi paytaxt Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib və öz müasir görkəmi ilə ölkəmizə səfər edənləri heyran qoyur, göz oxşayır. Bu, həyata keçirilən siyasətin, görülən işlərin nəticəsidir.

Hazırda müasir müstəqil Azərbaycan öz inkişaf yolunda gələcəyə əmin addımlarla irəliləyir. Bütün sahələrdə dayanıqlı inkişafın əldə olunması üçün məqsədyönlü, ardıcıl işlər görülür. Bu inkişaf bütün bölgələrimizin simasında öz əksini tapır. Azərbaycanın rayonları, şəhər, kənd və qəsəbələri öz abadlığı, gözəlliyi və müasir görkəmi ilə fərqlənir.

Bunlarla yanaşı, insanların sosial durumu - həyat şəraiti mütəmadi olaraq yaxşılaşdırılır. Əldə edilən çoxsaylı nailiyyətlər sübut edir ki, Ulu öndərimizin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işlər böyük uğurla həyata keçirilir. Bu gün hər bir vətəndaşımız ölkəmizin uğurlarından qürur duyur. Qazanılan nailiyyətlər xalqımızı daha böyük qələbələrə, zəfərlərə ruhlandırır. Dünyanı iqtisadi böhran bürüdüyü bir şəraitdə, bir çox ölkələrdə daxili sabitliyin pozulması və bunun nəticəsində çox böyük insan itkisi ilə nəticələnən münaqişələrin yaranması, dünyanın müxtəlif nöqtələrində siyasi və iqtisadi müharibə böhrana uğradığı dövrdə müstəqil Azərbaycanımızın dinamik inkişaf etməsi, əhalinin maddi rifahının günü-gündən yaxşılaşması çox fərəhləndiricidir.

**- Fəttah müəllim, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün də uğurla davam etdirilən, Azərbaycanın inkişafına xidmət edən mühüm reallıqlardan biri də çoxşaxəli islahatlar kursudur. Hazırda Azərbaycanda dövlətimizin qüdrətinin artmasına xidmət edən islahatların əhəmiyyətini və nəticələrini necə qiymətləndirirsiniz?**

- Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu islahatlar kursu bu gün uğurla davam etdirilir. İctimai, siyasi, iqtisadi və hüquqi islahatlar həm ayrı-ayrı sahələrin davamlı inkişafını təmin edir, həm də Azərbaycanın qüdrətli dövlət kimi tərəqqisini şərtləndirir. Bu kontekstdə ötən il ölkəmizdə keçirilən Konstitusiya islahatlarını xüsusi qeyd etmək lazımdır. Ölkəmizdə dövlətçiliyin möhkəmləndirilməsi, dövlətimizin müdafiə qüdrətinin artırılması, insanların həyat şəratinin və rifah halının yaxşılaşdırılması, idarəetmədə çevikliyin və səmərəliliyin daha da artırılması üçün keçirilən ümumxalq səsverməsi - referendumun nəticələri Azərbaycan xalqı və dövlətinin mənafeyini əks etdirdi, parlaq gələcək üçü etibarlı zəmin formalaşdırdı. Bu islahatların həyata keçirilməsi günün - zamanın tələbi idi, çünki zaman keçdikcə yeni çağırışlar və tələblər ortaya çıxır və bu çağırışlara adekvat cavab vermək üçün mütəmadi olaraq islahatların və yeniliklərin ortaya qoyulması zərurətdir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə uğurlu islahatlar həyata keçirilir. Məhz Azərbaycanın Birinci vitseprezidenti Mehriban xanım Əliyeva da bu islahatlara öz dərin töhfələrini və davamlı dəstəyini verməklə xalqımızın və dövlətimizi ali mənafeyi uğrunda öz fəliyyətini uğurla və fədakarlıqla davam etdirir. Zənnimcə, dövlətçiliyə xidmət edən bu yanaşma və fəaliyyəti dünya üçün bir örnəkdir - parlaq nümunədir. Göründüyü kimi məhz bu ailə dövlətçiliyə çox sıx bağlıdır və Azərbaycanın inkişafına, daha da güclənməsinə böyük töhfələr verir.

Azərbaycan xalqı Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün bu işləri təqdir etməklə öz dəstəyini nümayiş etdirir. Bu isə ölkəmizdə xalq-iqtidar həmrəyliyinin sarsılmazlığını əks etdirir. Türk şairi Mehmet Akif Ersoyun gözəl bir kəlamı var: "Girməsə təfriqə bir millətə, düşmən girəməz, toplu vurduqca ürəklər onu top sındıramaz". Əminliklə deyə bilərəm ki, xalqımız müdrikdir, öz müstəqilliyin qorumaq üçün ürəkləri toplu vuran xalqdır. Xalqımız Prezidentimiz ətrafında sıx birləşib, vahiddir. Ona görə də bu siyasəti qüvvə sındıra bilməz.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
15 iyun 2017-ci il

# "15 İyun Milli Qurtuluş Günü - xalqın və dövlətin xilas tarixi"

## YAP Xəzər rayon təşkilatında bu mövzuda dəyirmi masa keçirildi



***Dünən Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatında Xəzər rayon icra hakimiyyət və YAP Xəzər rayon təşkilatı ilə birgə 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş dəyirmi masa keçirilib.***

Tədbiri açıq elan edən YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyunundan 24 il keçdiyini xatırladaraq, bu illərin ölkəmizin və xalqımızın həyatında böyük dəyişikliklərlə yadda qaldığını vurğulayıb. Qurtuluş məfkurəsinin Azərbaycanın uğurlu inkişafının ideya əsası olduğunu qeyd edən N.Əhmədov bir sıra tarixi aspektlərə toxunaraq, Ulu Öndər Heydər Əliyevin çox qısa müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail olduğunu qeyd edib.

Tədbirdə çıxış edən Xəzər RİH başçısının birinci müavini Vaqif Həsənov Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından danışaraq qeyd edib ki, Milli Qurtuluş Gününü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biri kimi qiymətləndirilir: "Bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək planlarının puça çıxarılması ilə məhdudlaşmır". V.Həsənovun sözlərinə görə, bu tarixi gün, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir: "Ulu Öndər Heydər Əliyev tarix baxımından çox qısa bir müddətdə, milli dövlətçiliyin sarsılmaz əsaslarını yaradıb və Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail olub. Bu gün Heydər Əliyev ideologiyası və siyasəti Onun layiqli davamçısı, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilməkdədir".

Azərbaycan Respublikası Elmlər Akademiyasının Tarix İnstitutu"nun şöbə müdiri Tofiq Mustafazadə isə çıxışında qeyd edib ki, cəbhə hakimiyyəti zamanı ölkədə yaranmış vətəndaş qarşıdurması ilə yanaşı, Ermənistanın da işğalçılıq siyasəti davam edirdi: "Belə bir ərəfədə Azərbaycanı daxili və xarici düşmənlərdən qurtaracaq yeganə lider, yegana fenomenal şəxsiyyət, məhz Ulu Öndər Heydər Əliyev idi və O, öz qətiyyətli siyasəti və sarsılmaz iradəsi ilə xalqımızı və dövlətimizi bütün bəlalardan qorumağa nail oldu".

Müdafiə Nazirliyinin Hərbi Akademiyasının rəisi, general-mayor İlqar Məmmədov isə, dəyirmi masadakı çıxışında bildirib ki, Azərbaycan əsgərinin mövqeyi hər zaman bəlli olub və bu mövqe Ulu Öndər Heydər Əliyev ideologiyasını yaşatmaq və davam etdirməkdir: "Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələrkən, ordumuz demək olar ki, yox səviyyəsində idi, biz də həmin dövrlərdə gənc zabitlər olaraq, məhz Onun Azərbaycanın güclü və şanlı Ordusunu formalaşdıracağına inanırdıq".

Xəzər rayon Ağsaqqallar Şurasının sədri Cümşüd Muradov da çıxışında Ulu Öndər Heydər Əliyev barədə xatirələrini bölüşərək, Milli Qurtuluş Gününün hər bir azərbaycanlı üçün əziz gün olduğunu deyib. Dəyirmi masada Milli Aviasiya Akademiyasının dekanı Nazim Nağıyev geniş nitq söyləyərək, 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, Ulu Öndər Heydər Əliyevin Vətəni və xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışmış, Prezident İlham Əliyevin Ümummilli Liderin siyasi xəttini layiqincə davam etdirdiyini diqqətə çatdırıb.

**Rövşən NURƏDDİNOĞLU**



# DSX-in xüsusi məktəbində məzunların buraxılışına həsr olunmuş tədbir keçirilib



Dövlət Sərhəd Xidmətinin xüsusi məktəbində məzunların buraxılışına həsr olunmuş tədbir keçirilib. Tədbirdə çıxış edənlər məktəbin müəllim və şagird kollektivini, məzunları və onların valideynlərini təbrik edərək, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, göstərilən ali diqqət və qayğı sayəsində Azərbaycan Sərhəd Mühafizəsinin böyük inkişaf yolu keçdiyini qeyd etmiş, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın məktəbin yaradılmasındakı əməyini xüsusi vurğulamışdır.

Məktəbdə şagirdlərin savadlı, fiziki və mənəvi cəhətdən sağlam, vətənpərvər insanlar kimi yetişdirilməsi üçün hər cür şərait yaradıldığı, hər il məktəbdə oxumaq istəyənlərin sayının qəbul planında nəzərdə tutulduğundan, dəfələrlə çox olmasının məktəbin respublikamızda böyük nüfuz qazanmasının göstəricisi olduğu iftixar hissi ilə qeyd edilmişdir.

Təhsildə fərqlənən məzunların bir qrupuna qiymətli hədiyyələr təqdim olunduqdan sonra məzunlar Xüsusi Məktəbin bayrağına təzim edərək, məktəblə vidalaşmışlar. Tədbirin bədii hissəsində vətənpərvərlik mövzusunda şeirlər səsləndirilmiş, mahnılar oxunmuş, sülh, azadlıq və qələbə rəmzi olan göyərçinlər səmaya buraxılmışdır.

**R.RƏSULOV**


## "Nar"-dan "Yay kampaniyası"




"Nar" yeni "Yay kampaniyası"nı təqdim edib. Kampaniyaya gündə cəmi 59 qəpik ödəməklə ölkədaxili bütün istiqamətlərdə zənglər üçün 25 dəqiqə və 100 Mb internet trafiki daxildir. Paketə qoşulmaq üçün "Yay" yazıb 777 qısa nömrəsinə göndərmək və ya 777#59#YES şifrəsini yığmaq kifayətdir. Beləliklə, hər zaman sərfəli qiymətlərlə fərqlənən "Nar" öz abunəçilərinin yay mövsümündə artan mobil rabitə tələblərini qarşılamaq üçün bu səmərəli kampaniyaya start verib. Bu kampaniyadan yararlanan "Nar" istifadəçiləri sevdikləri ilə bol-bol danışmanın dadını çıxara biləcək, yay boyu internetdən istədikləri qədər istifadə edəcəklər. "Yay kampaniyası" ilə "Nar" istifadəçilərinin yay istirahəti daha rəngarəng olacaq.

"Yay kampaniyası" operatorun tarif planları və ya internet paketlərindən biri deyil, mövsümi xarakter daşıyan bir kampaniyadır. Əgər aktivləşdirmə SMS vasitəsilə edilərsə, cari tarifə uyğun olaraq balansdan 1 SMS-in qiyməti qədər məbləğ çıxılır. Aktivləşdirmə barədə SMS aldıqdan sonra telefonu söndürüb yenidən yandırmaq lazımdır. "Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2,3 milyon istifadəçisi olan "Nar" hazırda ölkə ərazisinin 99%-ni əhatə edən və 6000-dən artıq baza stansiyasından ibarət olan geniş şəbəkəsi ilə abunəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərir. "Yay kampaniyası" və operatorun digər tarif və kampaniyaları haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

# "Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli" mövzusunda konfrans keçirilib

***Dünən Təhsil Nazirliyinin dəstəyi, UNEC, "Clarivate Analytics", Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzinin təşkilatçılığı ilə "Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.***



Dünyanın nüfuzlu alimlərinin toplaşdığı konfransda çıxış edən Azərbaycan İqtisad Universitetinin rektoru Ədalət Muradov konfransın, məhz universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli mövzusuna həsr edilməsinin təsadüfi olmadığını bildirdi: "Son dövrlərdə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" əsas tutulmaqla, universitetlərdə həyata keçirilmiş islahatlar nəticəsində universitetlərdən gözləntilər artıb. Universitetlər təhsil-elm-istehsal üçbucağı prizmasından qiymətləndirilir. Cəmiyyətdə, artıq birmənalı olaraq, qəbul edilir ki, praktika ilə əlaqəsi olmayan elm, elm və praktika ilə əlaqəsi olmayan təhsil, təhsil və elmlə əlaqəsi olmayan biznes mümkün deyil".

Konfransda çıxış edən Təhsil naziri M.Cabbarov zəngin ənənələrə malik olan elmin inkişafından danışıb: "Azərbaycanda universitetlərin yeni idarəetmə modeli yaradılır. İnsan kapitalının formalaşması ilə məşğul olan ali təhsilin rolu davamlı şəkildə yüksəlir. Universitetlərimiz ənənəvi şəkildə kadr yetişdirməklə yanaşı, biliklərə əsaslanan məhsul istehsalçısına çevrilir. Son illər elmi-tədqiqat fəaliyyətinə qrantların cəlb olunması üçün müvafiq tədbirlər görülür. Bu da, gənclərin elmə marağını bir daha artırır".

ABŞ-ın Şimali Kalorina Universitetinin professoru, 2015-ci il kimya üzrə "Nobel" mükafatçısı Ə.Sancar çıxış edərək bildirib ki, təəssüflər olsun ki, bu gün dünya ölkələri hərbi məsələlərə təhsildən çox xərc çəkirlər: "Hərbi sahəyə elmdən, təhsildən çox vəsaitin ayrılması heç də düzgün addım deyil. Mən də kasıb ailədən idim, amma gözəl təhsil aldım. Bu günə gəlib çatmağımda Mustafa Kamal Atatürkün böyük əməyi olub. Qazandıqlarıma Atatürkün sayəsində nail olmuşam və ona çox minnətdaram. Biz müasir Türkiyə və onun qurucusu Atatürklə qürur duyuruq". Ə.Sancar, həmçinin, Türkiyə-Azərbaycan qardaşlığından danışaraq, qeyd edib ki, Azərbaycanla Türkiyə bir millət, iki dövlətdir və Türk dünyasının döyünən ürəkləridir.

**Samir**

# Qusarda 15 İyun Milli Qurtuluş Günü qeyd olundu



Dünən Qusar rayon icra hakimiyyəti və YAP Qusar rayon təşkilatının birgə təşkilatçılığı ilə 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə çiçək dəstələri düzdükdən sonra rayon Heydər Əliyev Mərkəzinin iclas zalında tədbir davam etdirilib. Tədbirdə çıxış edən YAP Qusar rayon təşkilatı idarə heyətinin üzvi Şahid Fərəməzov xalqımızın 15 iyun 1993-cü ilə qədər keşməkeşli tarix yaşadığını qeyd edib, həmin zaman müstəqilliyin belə itirilməsi təhlükəsinin olduğunu diqqətə çatdırıb: "Azərbaycan xalqı birləşərək, ölkəni bürümüş acınacaqlı vəziyyətə qarşı məntiqli, iradəli gücünü ortaya qoyub, təkid və tələblə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışını irəli sürdü və Milli Qurtuluş Günü Azərbaycanı bürümüş olan fəlakətdən, xaosdan və böhrandan xilas etdi".

Ş.Fərəməzov çıxışında onu da vurğuladı ki, həyata keçirilən uğurlu daxili və xarici siyasət, xalqın milli-mənəvi dəyərlərindən çıxış etməklə görülən işlər Ulu Öndər Heydər Əliyevi xalqımızın Ümummilli Liderinə çevirməklə bərabər, dövlətimizi də dünyanın qabaqcıl dövlətləri sırasına yüksəltdi: "Bu gün əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər ölkəmizin həyatında qazanılan uğurlar cəmiyyətin bütün sahələrini əhatə edib. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, təşkilatçılığı və təşəbbüsü sayəsində qəbul olunan qərarlar, mühüm fərman və sərəncamlar bu uğurların başlıca təminatçısıdır".



Tədbirin sonunda "Tarixin şanlı səhifələri" adlı sənədli film nümayiş olunub.

**Nəzakət ƏLƏDDİNQIZI**



# "Heydər Əliyev - Azərbaycanın ən müasir tarixində silinməz iz qoyan Dahi"

***Suraxanı rayonunda 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə silsilə tədbirlər keçirilir. "Heydər Əliyev - Azərbaycanın ən müasir tarixində silinməz iz qoyan Dahi" mövzusunda növbəti konfrans Suraxanı rayonu Heydər Əliyev Mərkəzi, Suraxanı rayon icra hakimiyyəti və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderin Heydər Əliyev Parkında ucalan abidəsini ziyarət ediblər. Suraxanı rayonu Heydər Əliyev mərkəzi ilə tanış olub və Mərkəzin sifarişi ilə hazırlanmış "Tarixi yaradan şəxsiyyət Heydər Əliyev" filminə baxıblar.

Dövlət Himni səsləndirildikdən sonra konfransda məruzə ilə çıxış edən Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilməsi xalqımızın qurtuluş, qəhrəmanlıq tarixidir: "Bu tarix Ulu Öndər Heydər Əliyevlə Azərbaycan xalqının sarsılmaz birliyinin, həmrəyliyinin rəmzi təcəssümüdür. 15 iyun tarixi Azərbaycanın böyük faciə və məşəqqətlərdən qurtuluşunun həqiqi ifadəsinə, inkişaf və tərəqqi ilə səciyyələnən yeni mərhələsinin başlanğıcına çevrilmişdir. Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin, müqəddəratının həll edildiyi bu ağır günlərdə Ulu Öndər öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtdı. Bu, sözün əsl mənasında, "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" - deyən Ulu Öndərin xalqı və vətəni qarşısında misilsiz fədakarlığı idi".

İ.Abbasov çıxışında onu da bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan hazırda Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir və qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Azərbaycan regionda lider, dünya birliyində söz sahibi olaraq milli maraqlarını bütün səviyyələrdə layiqincə təmin edən ölkədir.

Konfransda çıxış edən Milli Məclisin deputatı Sevinc Fətəliyeva və Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov qeyd ediblər ki, 15 iyun 1993-cü il tarixi Azərbaycanı qurtuluşa, xilasa və müstəqil dövlətçiliyə aparan yolun başlanğıcı kimi tarixə düşmüşdür. Ulu Öndər Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilib. Həyat və fəaliyyəti doğma xalqına və torpağa məhəbbət və sədaqət meyarı olub.

Sonda rayonda aparılan abadlıq-quruculuq işlərində fərqlənən bir qrup şəxs və təşkilat üzvü rayon icra hakimiyyəti başçısının Fəxr Fərmanı ilə təltif olundu.

**Zümrüd BAYRAMOVA**



# Gənclərin Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub

***15 İyun Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının və Sabunçu rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Ekskursiyada YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva, partiyanın fəalları və gənclər iştirak ediblər.***

Heydər Əliyev Mərkəzinin əməkdaşı iştirakçılara qeyri-adi və unikal tikili haqqında məlumat verərək bildirib ki, müasir Bakının simvollarından biri hesab edilən mərkəzdə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və foto-arxiv, sənədlər, eləcə də, müxtəlif eksponatlar nümayiş etdirilir. Ekskursiya zamanı şagirdlər Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən eksponat, fotostend və kitablarla tanış olublar. Ümummilli Lider Heydər Əliyev irsinin öyrənilməsi, yeni nəslin milli-mənəvi dəyərlər və ənənələrə bağlı ruhda böyüməsi məqsədi daşıyan ekskursiyada Ulu Öndərin zəngin irsi haqqında gənclərə ətraflı məlumat verilib. Qeyd olunub ki, müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin həyat yolu hər bir azərbaycanlı üçün əsl örnək olmalıdır.

***Samir***

# Naftalanda Milli Qurtuluş Günü qeyd olundu



Naftalan şəhər icra hakimiyyətinin və YAP Naftalan şəhər təşkilatının birgə təşkilatçılığı ilə 15 İyun Milli Qurtuluş Günü ilə əlaqədar tədbir keçirilib. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış abidəsini ziyarət edib, abidənin önünə gül-çiçək dəstələri düzmüşlər.

Tədbirdə çıxış edən Naftalan şəhər icra hakimiyyətinin başçısı Natiq Aslanov Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycan dövlətinin Qurucusu və Memarı olduğunu qeyd edib: “Azərbaycanlı olmağı ilə həmişə fəxr edən Böyük Şəxsiyyətin keçdiyi şərəfli ömür yolu, xalqının yolunda göstərdiyi misilsiz xidmətlər müasirlərimiz, eləcə də, gələcək nəsillər üçün əsl örnəkdir. 1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edildi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu”.

N.Aslanov çıxışında onu da qeyd edib ki, bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.

Sonda məktəblilərin ifasında “Dahi rəhbər” adlı kompozisiya nümayiş etdirilib.

***ZÜMRÜD***

# Bakı Slavyan Universitetində ictimai monitorinq keçirilib



Dünən Bakı Slavyan Universitetinin (BSU) Mətbuat xidmətinin təşkilatçılığı ilə imtahan sessiyasının gedişini izləmək üçün ictimai monitorinq keçirilib. Monitorinq BSU-nun rektoru, professor Nurlana Əliyevanın 2016-2017-ci tədris ilinin yay imtahan sessiyasında şəffaflığın və obyektivliyin təmin edilməsi məqsədilə verdiyi əmrə əsasən təşkil edilib. Universitetin müxtəlif fakültələrində keçirilən monitorinqdə tanınmış təhsil ekspertlərindən Nadir İsrafilov, Şahlar Əsgərov, Kamran Əsədov, aparıcı KİV nümayəndələrindən - Azərbaycan Dövlət İnformasiya Agentliyindən (AzərTac) Pərvanə İmanova və Roman İsmayılov, “Azad Azərbaycan” qəzetindən Hacı Tofiq Seyidzadə, “İki sahil” qəzetindən Taleh Şahməmmədli, “Azərbaycan müəllimi” qəzetindən Şakir Cəfərov, “Respublika” qəzetindən Ramiz Yusifov, “Səs” qəzetindən Zümrüd Bayramova, “Yeni Azərbaycan” qəzetindən Nurlan Qələndərli, “Xalq qəzeti”ndən Mehdi Mükərrəmoğlu, SİA - Səs İnformasiya Agentliyindən Ruqiyyə Nəcəfzadə, Azadinform İnformasiya Agentliyindən Ləman Hüseynzadə, Report İnformasiya Agentliyindən Aygün İbrahimova, Media.tv informasiya portalından Əfqan Bəhluloğlu, Moderator.az xəbər portalından Mehman Nəbiyev, BakıPost saytından Nigar Etibar və digər media orqanlarının nümayəndələri iştirak ediblər.

Ekspertləri və media nümayəndələrini ilk növbədə BSU-nun rektoru, professor Nurlana Əliyeva qəbul edib. O, 2016-2017-ci tədris illərində BSU-da baş verən yeniliklər, yenidənqurma işləri, universitetdə keçirilən beynəlxalq və respublika konfransları, universitetin rəsmi qonaqları, beynəlxalq müqavilələri barədə ətraflı məlumat verib. N.Əliyeva bildirib ki, 2 may 2017-ci il tarixindən BSU-da yay imtahan sessiyasına start verilib. Bakı Slavyan Universitetində (BSU) imtahan sessiyasının mövcud normativ sənədlər əsasında təşkil olunmasını, imtahanların gedişinə nəzarət, yarana biləcək münaqişə və şikayətlərin yerində operativ həll edilməsini təmin etmək məqsədi ilə universitetdə fəaliyyət göstərən Valideynlər şurasının, Tələbə Gənclər Təşkilatının, tələbə və magistrantlardan formalaşan “Kölgə kabineti”nin, “Tələbə dünyası” qəzetinin nümayəndələrindən ibarət “Operativ qərargah” yaradılıb. Nurlana Əliyeva qeyd edib ki, qərargahı yaratmaqda məqsəd imtahanın gedişində obyektivliyi və şəffaflığı təmin etmək, qərargahın fəaliyyəti barədə müəllim, tələbə və valideynlərə vaxtaşırı məlumat vermək, valideynlərin imtahan prosesinin bütün mərhələlərində fəal iştirakını təmin etməkdir.

Sonda qonaqlar Operativ qərargahın işi ilə yaxından tanış olub, qərargah rəhbəri elmi işlər üzrə prorektor, professor Rafiq Novruzov qərargahdakı iş rejimi barədə media və ictimaiyyət nümayəndələrinə ətraflı məlumat verib. R.Novruzov bildirib ki, tələbələr imtahan cavablarını artıq elektron formada rahat qaydada əldə edə bilirlər. Prorektor münaqişəli məsələlərin yerindəcə həll edildiyini diqqətə çatdırıb. Bundan əlavə, o, təhsil haqqını vaxtında ödəməyən tələbələrin ailə vəziyyətinin nəzərə alındığını da qeyd edib. Monitorinq çərçivəsində 23 qrup üzrə imtahan yazı otaqlarına baxış keçirilib, imtahan prosesinin gedişi ilə əlaqədar tələbələrin fikirləri, onları maraqlandıran suallar dinlənilib. Media və ictimaiyyət nümayəndələri Beynəlxalq münasibətlər, pedaqoji, filologiya, tərcümə fakültələrinin imtahanlarında iştirak edib, tələbələrlə birbaşa təmasa giriblər.

***Z.Bayramova***

# Ağdamda 15 İyun Milli Qurtuluş Günü qeyd olundu





***YAP Ağdam rayon təşkilatı 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə rayonun Heydər Əliyev Mərkəzində tədbir keçirib. İlk öncə, tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, üzərinə tər çiçəklər qoyublar.***

Tədbiri giriş sözü ilə açan YAP Ağdam rayon təşkilatının sədr əvəzi Zülfü Qasımov Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən danışaraq qeyd edib ki, bu gün ölkəmizin, hər yerində olduğu kimi, Ağdam içtimaiyyətinin nümayəndələri də xalqımızın, milli dövlətçiliyimizin tarixinə qızıl hərflərlə yazılmış, heç vaxt yaddan çıxmayacaq bir günü - 15 İyun Milli Qurtuluş Gününü, xalqımızın böyük oğlu, Dahi Siyasətçi Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışının 24-cü il dönüşünü qeyd edir: " Yüksək vəzifə tutmuş cəbhəçi "bəy"lərin üzdəniraq fəaliyyəti nəticəsində, respublikada siyasi-iqtisadi və sosial gərginlik son həddə çatmışdı. Azərbaycan XX əsrin sonlarında, ikinci dəfə əldə etdiyi milli müstəqilliyini itirmək, vətəndaş müharibəsinə yuvarlanmaq, bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Lakin Ulu Öndər Heydər Əliyevin qətiyyətli və uzaqgörən siyasəti xalqımızı və dövlətçiliyimizi bu bəlalardan xilas etmiş oldu".

Z.Qasımov çıxışında onu da bildirib ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın bugünki uğurlarını təmin edən ən başlıca şərtdir. Azərbaycanın müstəqilliyinin təməlləri möhkəmləndi və Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir". Ulu Öndərin qurub-gücləndirdiyi Azərbaycan müasir dövrümüzdə Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən daha da qüdrətləndirilərək, regionun lider dövlətinə çevrilib. Bütün bunlara ölkəmiz Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli və cəsarətli siyasəti nəticəsində nail olub".

***ZÜMRÜD***



# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Milli Qurtuluş Günü qeyd olunub

**Dünən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş dəyirmi masa keçirilib. Dəyirmi masanı BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov açaraq, 15 İyun Milli Qurtuluş Gününü Azərbaycan dövlətçilik tarixinin ən şanlı səhifələrindən biri kimi səciyyələndirib: "1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin mübarizliyi, iradəsi və qətiyyəti sayəsində həmin dövrdə respublikamız daxilində etnik-mədəni zəmində çaxnaşmalara son qoyuldu, Azərbaycan siyasi sabitlik, iqtisadi və mədəni tərəqqi yoluna qədəm basdı. Ulu Öndər Heydər Əliyev Azərbaycanı separatizmin cəngindən qurtararkən, tarixən bu torpaqları özünə vətən seçmiş, əsrlərdir burada yaşayan xalqların nümayəndələrini azərbaycançılıq ideologiyası ətrafında birləşdirərək indiki qüdrətli və multikultural Azərbaycanın memarı oldu".**

R.Həsənov çıxışında onu da bildirdi ki, bu gün Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dünyada Azərbaycan multikulturalizminin, mədəniyyətinin, mənəvi irsinin təqdimatı və təbliğatı sahəsində böyük işlər həyata keçirilir: "Bu da, onu göstərir ki, milli qurtuluşumuzun müəllifi olan Ulu Öndər tərəfindən əsası qoyulmuş ali ideyalar, ənənələr bu gün də yaşayır və ən ali formada gerçəkləşdirilir".

Dəyirmi masada Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə şöbəsinin baş məsləhətçisi Etibar Nəcəfov çıxış edərək, 1990-cı illərdə Azərbaycandakı çətin siyasi şəraiti xatırladaraq, məhz Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda siyasi-iqtisadi vəziyyətin stabilləşdiyini bildirib.

Dəyirmi masada Azərbaycandakı Talış İcmasının rəhbəri, professor İmamverdi Həmidov, Roma Katolik Kilsəsinin nümayəndəsi Cozef Marik, "Ronahi" Kürd Mədəniyyət Mərkəzinin rəhbəri Fəxrəddin Paşayev, "Azəri" Tat Mədəniyyət Mərkəzinin sədri Elman Əhmədov, AMEA-nın elmi işçisi Radif Mustafayev, Azərbaycanda yaşayan Axıska türklərinin "Vətən" İctimai Birliyinin sədri İbrahim Məmmədov, AMEA İnsan Hüquqları İnstitutunun əməkdaşı Moisey Bekker və başqaları çıxış edərək, 15 İyun Milli Qurtuluş Gününü müasir Azərbaycanın inkişafının başlandığı tarix kimi dəyərləndiriblər və artıq 20 ildir ki, xalqımızın bu günü böyük bayram əhval-ruhiyyəsi ilə qeyd etdiyini vurğulayıblar.

***NƏZAKƏT***

# Sərhəd rejim qaydalarını pozarkən, 949 halda 1253 nəfər saxlanılıb

Dövlət Sərhəd Xidməti tərəfindən 2017-ci ilin may ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, qaçaqmalçılığa, qeyri-leqal miqrasiyaya, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə uğurla davam etdirilmişdir.

Ay ərzində dövlət sərhədini pozduqlarına görə 32 nəfər saxlanılmış, onların 13 nəfəri Azərbaycan Respublikası, 7 nəfəri Özbəkistan, 6 nəfəri Banqladeş, 2 nəfəri Rusiya Federasiyası, hər ölkədən 1 nəfər olmaqla, İran İslam Respublikası, Moldova, Pakistan və Əlcəzair vətəndaşları olmuşlar.



Sərhəd rejim qaydalarını pozarkən, 949 halda 1253 nəfər saxlanılaraq, barələrində müvafiq tədbirlər görülmüşdür. Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 379 nəfər aşkarlanaraq, aidiyyəti orqanlara təhvil verilmişdir. Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində, 951,3 qram narkotik maddə aşkar edilərək götürülmüşdür.

"Xaş-xaş-2017" şərti adı altında keçirilmiş əməliyyat tədbirləri nəticəsində, Zaqatala və Şəmkir rayonlarının sərhədyanı ərazilərində 15873 ədəd yabanı halda bitmiş narkotik xassəli bitkilər yığılaraq, ictimaiyyətin və hüquq-mühafizə orqanları əməkdaşlarının iştirakı ilə yandırılaraq, məhv edilmişdir.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri təqribən 184 min 378 manat olan qaçaqmal, o cümlədən, 1 ədəd pnevmatik tapança, 376 qutu pirotexniki vasitə, 7 ədəd qayıq, 43500 ABŞ dolları, 10000 avro, 4528 qutu siqaret, 208 ədəd mobil telefon, 3914 ədəd müxtəlif növ dərman preparatları, 7 ədəd Ermənistanın təsvirləri olan kitabça, spirtli içkilər, sənaye və kənd təsərrüfatı malları saxlanılmışdır. Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

***RƏFİQƏ***

www.sesqazeti.az
facebook Ses Media Holding

# Müxalifət niyə maliyyə hesabatı vermir?



*Birmənalı şəkildə demək olar ki, Azərbaycan müxalifəti özünün acı taleyi ilə barışmalı olub. Çünki dərk edirlər ki, cəmiyyət tərəfindən qəbul olunmurlar. Baxmayaraq ki, özlərinə yaxın mətbu orqanlara verdikləri açıqlamalarında xalqın müxtəlif təbəqələri arasında müəyyən dəstəyə malik olduqlarını bildirirlər. Ancaq bu, özünü aldatmaqdan başqa bir şey deyil. Fakt-sübut budur ki, onların keçirdikləri aksiyalara ictimaiyyət tərəfindən heç bir dəstək verilməyib. Bu da mitinqlərin uğursuzluqla nəticələnməsinə gətirib çıxarıb. Müxalifət liderlərinin əldə etdikləri, yalnız Azərbaycanın dünya miqyasında yerinin və rolunun möhkəmlənməsindən ciddi narahat olan məkrli qüvvələrdən aldıqları çirkli pullar olub. Xarici məkrli qüvvələrdən aldıqları maliyyə yardımları qarşılığında ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa can atan Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digər qaragüruhçular hər cür yaramazlıqdan, eləcə də, digər vasitə və üsullardan istifadə etməkdən çəkinmirlər.*



### Cinayət cəzasız qala bilməz

Əldə olunan məlumatlar və müxalifət partiyalarından mətbuata sızdırılan informasiyalara əsasən, demək olar ki, hər il xarici maraqlı qüvvələr tərəfindən dağıdıcı partiyalara milyonlarla manat vəsait verilir. Misal üçün 2013-cü il prezident seçkiləri zamanı AXCP sədri Ə.Kərimliyə ABŞ-ın Milli Demokratiya İnstitutu tərəfindən "Facebook layihəsi"nə görə 2 milyon ABŞ dolları məbləğində vəsaitin ayrılmasını göstərmək olar. Sonrakı mərhələdə müxtəlif siyasiləşmiş QHT-lər vasitəsi ilə AXCP-yə maliyyə yardımları göstərilmişdir. Elə bu günlərdə AXCP sədrinin müavini Gözəl Bayramlı xaricdən Gürcüstan Bankına köçürülən və oradan Ə. Kərimliyə çatdırılmalı olan külli miqdarda maliyyə vəsaitini qaçaqmalçılıq yolu ilə Azərbaycana keçirərkən saxlanılmışdır. Bu cür faktlardan kifayət qədər qeyd etmək olar. Həm də onu vurğulamaq olar ki, məhz qaranlıq maliyyə yardımları əldə etdiklərindəndir ki, AXCP və Müsavat kimi partiyalar maliyyə hesabatları verməkdən imtina edirlər.

"Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov parlamentin iclasında cıxışı zamanı bu istiqamətdə qanunun sərtləşdirilməsinə zərurət olduğunu bildirib: "Bu yaxınlarda Azərbaycanın Baş prokuroru da açıqlama verdi ki, bəzi partiyalar maliyyə mənbələri haqqında ictimaiyyətə və aidiyyəti strukturlara məlumat vermirlər. Baxmayaraq ki, biz bununla bağlı qanun qəbul etmişik və qanuna əsasən onlar həm MSK-ya, həm də digər strukturlara bu haqda hesabat verməlidirlər. Biz şəffaflığın təminatı ilə bağlı qanun qəbul etmişik və bu addımı vaxtında atmışıq". Siyavuş Novruzov onu da bildirib ki, siyasi partiyaların birinin müavininin 41 dəfə bir ölkəyə səfər edib, oradan pul çıxarıb gətirməsi, təbii ki, sağlam məqsədə xidmət etmir: "Əgər sağlam adamsansa, niyə bunu Azərbaycanda, bizim banklar vasitəsilə deyil, digər ölkələrin banklarından alırsan?" S.Novruzov vurğulayıb ki, Azərbaycanda bəzi partiyalar hesabatlarını təqdim etmir və ya təqdim edərkən, sıfır rəqəm qeyd edir: "Hansı ki, onların kifayət qədər işçiləri, cangüdənləri, bahalı maşınları və digər yüksək şəraitləri var. Bu baxımdan, düşünürəm ki, onlar yoxlanmalıdır. Əgər şəffafdırsa, bu qanunlardan qorxmamalı, öz maliyyə mənbələrini açıqlamalıdır".

### "Milli Şura"nı "İctimai Palata"nın acınacaqlı aqibəti gözləyir

Bugünkü faktlara və baş verənlərə əsaslanaraq, demək olar ki, AXCP və Müsavat kimi xarici məkrli qüvvələrdən qidalanan ünsürlər, sözün həqiqi mənasında, çox əcaib-qəraib işlərlə məşğuldurlar. Gah hədələyici açıqlamalar verir, gah da ultimativ bəyanatlarla çıxış edirlər. Məqsəd isə eyni marağa hesablanıb: xarici qüvvələrin diqqətini mümkün qədər özlərinə cəlb etmək. Amma bu prosesdə diqqətçəkən məqam ondan ibarətdir ki, AXCP ilə Müsavat arasında münasibətlər, heç də, xarici qüvvələrin istədikləri kimi yaxşı deyil. Tərəflər arasında ciddi konfliktlər və qarşıdurmalar mövcuddur. Hər gün, demək olar ki, bu iki əzəli rəqib partiya funksionerlərinin bir-birini aşağılayan ittihamlarına rast gəlmək olar. Növbəti il prezident seçkilərinin keçiriləcəyini nəzərə alsaq, əminliklə demək olar ki, qarşılıqlı ittihamlar yaxın vaxtlarda daha da genişlənəcək və AXCP-Müsavat savaşı alovlanacaq. Sonrakı mərhələd isə çəkişmələr Ə.Kərimli ilə C.Həsənli araslnda davam edəcək. Çünki bu iki məxluq arasında "vahid namizəd" adını əldə etmək uğrunda savaş başlayacaq. Beləliklə də, "Milli Şura" bir növ "İctimai Palata"ya cevriləcək. "İctimai Palata" necə "vahid namizəd" müəyyənləşdirə bilməmişdisə, "Milli Şura" da o aqibəti yaşayacaq. Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında müxalifətin dağılmasının gözlənilən olduğunu bildirdi: "Müxalifət düşərgəsində fəaliyyət göstərən partiyalara rəhbərlik edən şəxslərin bir-birinə olan nifrəti, paxıllıqları, şəxsi ambisiyaları, birinin digərindən üstün olmaq kimi istəkləri, müxalifət partiyalarını dağılmaq təhlükəsi ilə üzləşdirib. Bu baxımdan, demək olar ki, müxalifətin acınacaqlı vəziyyətlə üzləşməsinin əsas səbəbkarları, məhz bu partiyalara rəhbərlik edən şəxslərdir. Yəni elə günahkar partiya sədrləridir. Əgər müxalifəti xalq müdafiə etmirsə, irəliyə doğru gedə bilmirsə, onda bu sədrlər partiyaları tərk etməlidirlər. Bu, müxalifətin sonu olmalıdır".

Göründüyü kimi, dağıdıcı müxalifət partiya sədrləri maliyyə hesabatları vermir, çünki xarici maraqlı qüvvələr tərəfindən maliyyələşirlər. Pul isə "get, özün üçün xərclə" deyə verilmir. Qarşılığında, yuxarıda qeyd etdiyimiz kimi, ölkənin beynəlxalq aləmdəki imicini ləkələmək və uğurlarına kölgə salmaqdır. Belələrinə bir ad vermək olar - satqınlar!

***İ.ƏLİYEV***

# Rəsul Quliyevin partiyasında rəzalət!

## *Ağasif Şakiroğlu partiya üzvlərini video-kadrlarla şantaj edir*



*Eks-spiker Rəsul Quliyevin növbəti uğursuz layihəsi olan "Gələcək Azərbaycan Partiyası" adlı qurumla bağlı redaksiyamıza ciddi informasiyalar daxil olmaqdadır. Belə ki, "Gələcək Azərbaycan Partiyası"nın sədri R.Quliyevin növbəti qurbanı Ağasif Şakiroğlu, demək olar ki, partiyada hər gün eyş-işrət məclisi qurur. Hətta o, partiya fəallarını və müavinlərini kef məclislərinə apararaq, hamısını da video-lentə aldırır. Bununla da, gələcəkdə onları şantaj etmək üçün əlində cəmləyir.*

"Gələcək Azərbaycan Partiyası"nın üzvü Murad adlı gənc qəzetimizə açıqlamasında A.Şakiroğlunun şantajı ilə üzləşdiyini bildirərək, qeyd edib ki, əslində, o, bütün bu çirkin işləri R.Quliyevin tapşırığı ilə görür: "Mən 2014-cü ildə partiyaya üzv oldum. Sonra partiyada gənclər birliyinin sədri oldum. Mənə ayda 300 manat maaş veriləcəyini dedilər, şəxsən Ağasif bunu mənə söz verdi. Razılaşdıq. Ancaq 3-4 ay keçdi, mənə bir qəpik də maaş vermədi, sonra mən tələb elədim. Bundan sonra məni şantaj elədi. Birlikdə olduğumuz kef məclisindəki hərəkətlərimi telefonla gizli çəkdirib. Bu dava-dalaş hələ də gedir. Bu il də dəfələrlə istəyiblər ki, şəhərdə təxribat törətsinlər, ancaq mən razılaşmamışam. R.Quliyev onun qarşısında şərt qoyub ki, icazəsiz aksiya keçirin və bir neçə nəfər həbs edilsin. Daha sonra onları "siyasi məhbus" elan edək". Eks "GAP"-ın üzvü onu da bildirdi ki, ADP-nin qərargahında yerləşən partiya üçün R.Quliyev ayda 15 min dollar pul göndərir: "Burdan cəmi 400 manat ADP-nin qərargahında kirayələnən 2 otaq üçün pul verilir. Pulun qalanını yeyirlər. Ağasif özünə bir neçə obyekt də alıb. Bacısı üçün gözəllik salonu açıb".

Bəli, həqiqətən də, burda təəccüblü heç nə yoxdur. R.Quliyevin dəstək verdiyi, yaxud R.Quliyevə dəstək verən adam özündən artıq olmayacaqdı ki?! Eyni zamanda, hələ ADP təcrübəsində gördük ki, R.Quliyev necə "qaz"lanıb. İllərlə S.Cəlaloğluna, onun qardaşı Q.Məmmədova milyonlarla pul göndərdi. Bəs əvəzində nə gördü? S.Cəlaloğlu paytaxtın hər bir yerində ev aldı, obyektlər ələ keçirdi, qohumlarının adına bir neçə media qurumu yaratdı, bahalı maşınlara sahibləndi. İndi də A.Şakiroğlu fürsəti əldən vermək istəmir və bu dəfə R.Quliyevi "qaz"lamaqla o məşğuldur!

Bütün bunlarla yanaşı, məsələnin daha həssas tərəfləri var. İnsanları video-kadrlarla şantaj etmək hansı əxlaqa sığır? Özü də bu şantaj birbaşa R.Quliyevin tapşırığı ilə həyata keçirilirsə... Hesab edirəm ki, burada da təəccüblü heç nə yoxdur. Çünki R.Quliyev Avropada porno filmlər çəkən ən böyük prodakşınlardan birinin sahibidir. Ən dəhşətlisi isə budur ki, R.Quliyevin sahibi olduğu prodakşının daha çox uşaq porno filmləri çəkdiyi haqqında informasiyalar yayılmaqdadır. Belə bir insanın öz partiyadaşlarını çirkin üsullarla şantaj etməsi təəccüb doğurmaya bilməz. Necə deyərlər, hər kəs öz xislətinə uyğun hərəkət edir.

***Samir***

# Azərbaycanda insan hüquqlarının təmin olunmasında mülki-hüquqi müqavilələrin rolu

Müasir dövrdə mülki-hüquqi müqavilələr insanların hüquqlarının təmin olunmasında əsas rol oynayan yuridik amilə çevrilmişdir. Mülki hüquq termini, əslində, "vətəndaş hüququ" mənasında işlənir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1.2. maddəsində mülki hüquq aşağıdakı kimi səciyyələndirilir: "Mülki hüquq - müstəqil hüquq sahəsi kimi, mülki hüquq subyektlərinin əmlak, şəxsi qeyri-əmlak, münasibətlərini tənzimləmək, mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi həyatının və şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq, mülki dövriyyəni təmin etmək, sahibkarlıq fəaliyyətini dəstəkləmək, sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq və s. digər vəzifələri əhatə edir".

AR mülki qanunvericiliyi AR Konstitusiyasına əsaslanır və Mülki Məcəllədən, digər qanunlardan və onların əsasında qəbul edilən, mülki hüquq normalarını müəyyənləşdirən başqa normativ aktlardan ibarətdir.

Mülki qanunvericiliyin prinsipləri aşağıdakılardır:

- Mülki hüquq subyektlərinin bərabərliyi (mənsubiyyətindən asılı olmayaraq);
- Mülki hüquq subyektlərinin iradə sərbəstliyi (seçmək hüququ);
- Mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi (hər bir subyekt öz əmlakı üzərində sərbəst sərəncam vermək hüququna malikdir);
- Mülkiyyətin pozulmazlığı (qanuni əsas olmadan heç bir mülkiyyət alına bilməz);
- Müqavilələr azadlığı (kontragent seçilməsində sərbəstlik);
- Şəxsi həyata kimsənin özbaşına qarışmasının yolverilməzliyi (mütləq hüquq);
- Pozulmuş hüquqların bərpasını təmin edilməsi (restitusiya);
- Mülki hüquqların məhkəmə müdafiəsi (yurisdiksiya);

Mülki hüququn subyektləri vətəndaşlar, hüquqi şəxslər, dövlət və bələdiyyə təşkilatlarıdır.

Fransada qəbul olunmuş mülki hüququ özündə əks etdirən Mülki Məcəllə dövlət və hüququn ali məqsədi kimi insanın azadlığı, hüquqları və ləyaqəti olmasını bəyan etmişdi. Əslində, Azərbaycan Respublikasının Mülki Məcəllәsi də İnsan dövlət üçün deyil, dövlət insan üçündür" prinsipini əsas götürür. İnsanın iştirak etdiyi hüquqi münasibətlərin əksəriyyəti mülki-hüquqi xarakter daşıyır. İnsan mülki-hüquqi münasibətin subyektidir.

Azərbaycan hüquqşünası Əkrəm Həsənov "İş və xidmət müqavilələri" kitabında yazmışdır: "Fransadan sonra hər bir ölkə Mülki Məcəlləyə malik olmağı özünə borc bilmişdir. Bu sənədin əhəmiyyətini nəzərə alaraq onu, hətta qeyri-rəsmi olaraq, qürurla ölkənin iqtisadi konstitusiyası adlandırmağa başladılar. İlk dövrlərdə qəbul edilən mülki məcəllələr Fransa təcrübəsindən qaynaqlanırdı: azadlıq ruhu və geniş xalq kütlələri üçün asan başa düşülən sadə dil onların prioriteti idi.

Lakin XIX əsrin ikinci yarısında iqtisadi münasibətlər artıq xeyli mürəkkəbləşmişdi və yüksək qanunvericilik texnikasına söykənən adekvat hüquqi tənzimə zərurət yaranmışdı. Buna görə də, XIX əsrin sonunda hüquq texnikası baxımından xeyli mükəmməl olan Almaniya Mülki Qanunnaməsi qəbul edildi. Düzdür, həmin sənədin dili sadə deyildi və geniş xalq kütləleri üçün deyil, daha çox peşəkar hüquqşünaslar üçün nəzərdə tutulurdu. Bir müddət sonra qəbul edilən İsveçrə Öhdəlik Qanunu isə Fransa Mülki Məcəlləsinin sadə dili və Almaniya Mülki Qanunnaməsinin yüksək hüquq texnikasını sintez etmişdir. Digər ölkələrin mülki məcəllələri, məhz bu üç qanunvericilik aktından birini və ya bir neçəsini nümunə kimi götürmüşdür.

Hətta Sovet İttifaqının mülki qanunvericiliyi də Almaniya təcrübəsinə əsaslanırdı. Düzdür, yalnız planlı dövlət iqtisadiyyatına söykənən SSRİ-də (təbii ki, onun tərkib hissəsi olan Azərbaycanda da) mülki qanunvericilik çox yarımçıq xarakter daşıyırdı: əsasən, vətəndaşlar arasında olan məişət münasibətlərini və sosialist təşkilatları arasında inzibati xarakterli normativ-hüquqi aktlardan irəli gələn bəzi münasibətləri tənzimləyirdi. Bolşeviklər hakimiyyətə gəldikləri ilk dövrdə, ümumiyyətlə, mülki hüququ ləğv etmək istəyirdilər, çünki bütün hüquq münasibətlərinin publik (ictimai) xarakter alacağını qət etmişdilər. Təbii ki, bu niyyət boş xülya idi: özəl münasibətlər insan təbiətinə xasdır, insanın təbiətini isə yalnız Allah dəyişə bilər. Son nəticədə, məhz özəl münasibətlərə dair məhdudiyyətlər, insanın sərbəstliyinin boğulması SSRİ-nin süqutuna gətirdi. Beləliklə də, müstəqillik qazanmış keçmiş İttifaq respublikaları bazar iqtisadiyyatının prinsiplərinə və müasir tələblərə cavab verən mülki qanunvericilik qəbul etmək şansı qazandı".

Məlum olduğu kimi, mülki münasibətlərin hüquq və vəzifələri, bilavasitə müqavilələrlə (əqdlərlə) bağlıdır. Mülki-hüquqi tənzimlənən münasibətlərə aid müqavilələr mülki-hüquqi müqavilə adlanır və insanların təmin hüquqlarının müdafiəsini təmin edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 19 dekabr tarixli qərarında göstərilir:

Mülki-hüquqi əqdlərin əvəzliliyi qanunvericiliklə hər bir müqavilənin əvəzliliyi prezumpsiyası ilə müəyyən edilmişdir. Belə ki, müqaviləyə görə tərəf öz vəzifələrinin icrası müqabilində haqq və ya digər qarşılıqlı əvəz almalıdırsa, həmin müqavilə əvəzli sayılır. MM-dən, müqavilənin məzmunundan və ya mahiyyətindən ayrı hal irəli gəlmirsə, müqavilənin əvəzli olduğu ehtimal olunur (MM-in 397.1 və 397.3-cü maddələri).

Əvəzsiz əqdlərdənsə tərəflər bir-birilərindən qarşılıqlı təminat almırlar.

MM-in 397.2-ci maddəsinə əsasən, müqaviləyə görə, bir tərəf digər tərəfdən haqq və ya digər qarşılıqlı əvəz almadan ona nə isə verməyi öhdəsinə götürürsə, həmin müqavilə əvəzsiz sayılır. Bağışlama müqaviləsi hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmədiyindən, əvəzsiz müqavilədir və bu müqavilə hədiyyə alanın hədiyyəni qəbul etməsi ilə bağlanmış sayılır. Göründüyü kimi, qanunverici bağışlama müqaviləsini, yalnız hədiyyə alanın hədiyyəni qəbul etdiyi andan bağlanmış sayır.

Mülki qanunvericiliyin normaları bağışlama müqaviləsinin əvəzli müqayilə olduğunu, hədiyyə alan şəxsin hədiyyə müqabilində hədiyyə verən qarşısında onun bəhrələnməsinə yönələn öhdəliklər daşıdığını deməyə əsas vermir. Əks halda, bu öhdəliklər bağışlama müqaviləsinin anlayışına, mahiyyətinə və hüquqi təbiətinə zidd olardı. Digər tərəfdən, bağışlamanın əvəzsiz müqavilə olması bəzi hallarda hədiyyə alanı hədiyyə verən qarşısında öhdəliklərdən və şərtlərdən azad etmir. Belə ki, hədiyyə verən hədiyyə alanın üzərinə özünün bəhrələnməsi ilə bağlı olmayan müxtəlif öhdəliklər qoya bilər. Belə öhdəliklər dövlət mənafeyi, ictimai mənafe, hədiyyə verənin və ya başqa şəxslərin xeyrinə qoyula bilər. Burada nəzərə alınmalıdır ki, öhdəlik bağışlama müqaviləsinin əvəzsizliyinə zidd olmamalı, hədiyyə verənin zənginləşməsi və ya hər hansı maddi təminat əldə edilməsi ilə bağlı olmamalıdır.

Qeyd olunmalıdır ki, hər bir mülki-hüquq müqaviləsinin özünə məxsus şərtləri (müqavilənin standart şərtləri və s. şərtlər) vardır və müqavilələr bu şərtlərə riayət olunmaqla bağlanılmalıdır. MM-in 6661-ci maddəsinə əsasən, bağışlama müqaviləsi, bir qayda olaraq, hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilməməsinə baxmayaraq, qanunverici bağışlama müqaviləsinin öhdəliklə şərtləndirilməsini, yəni bağışlamanı müəyyən şərtlərin və ya öhdəliklərin yerinə yetirilməsindən asılı edilə bilməsini istisna etməmişdir.

MM-in 670.1-ci maddəsinə görə bağışlama şərtlərin və ya öhdəliklərin yerinə yetirilməsindən asılı edilə bilər. Əgər bağışlama öhdəliklə şərtləndirilməyibsə, hədiyyənin qəbul edildiyi ehtimal olunur. Yəni bu növ müqavilələr müəyyən öhdəliklə şərtləndirildiyi halda belə, hədiyyə alanın hədiyyəni qəbul etməyə razılığının mövcud olması müqavilənin bağlanmış hesab olunması üçün vacibdir. Bağışlama müqaviləsi üzrə öhdəlik hədiyyə verəndə yaranır və hədiyyə predmetinin hədiyyə alana verilməsində ifadə olunur.

Müqavilə üzrə hüquq və vəzifələrin icra edilməsi halları qeyri-müəyyənlik əlamətinə malik olduqda, bağışlama müqaviləsi şərtlərlə bağlanmış müqavilə hesab edilir. Əgər şərt kimi qaçılmaz (labüd) olaraq yaranacaq hal göstərilmişsə, belə müqavilə şərtli bağışlama müqaviləsi hesab edilə bilməz. Bu, əvvəlcədən bəlli olan, müəyyən vaxtdan hədiyyəni




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

bağışlamaq vədini özündə əks etdirən sadə şərtsiz bağışlama müqaviləsidir.

Azərbaycanda mülki-hüquqi müqavilələrin bağlanması zamanı xarici təcrübədən istifadə olunur. "Bununla belə, konkret olaraq, bizim Mülki Məcəllədə yalnız Rusiya təcrübəsi istifadə edilməyib. Onun hazırlanmasında Almaniya Mülki Qanunnaməsinin də mühüm təsiri açıq-aydın görsənir. Lakin belə nəticədənsə, Rusiya Mülki Məcəlləsini tam tərcümə edib, qəbul etmək daha yaxşı olardı. Çünki Mülki Məcəllənin bəzi fəsilləri (əsasən, Ümumi hissədə) Rusiyadan, bəziləri isə (əsasən, Xüsusi hissədə) Almaniyadan götürülüb. Təbii ki, nəticədə Mülki Məcəllə sistemsiz sənədə çevrilib, çünki bu zaman, nəinki terminologiyalar, ümumiyyətlə, oxşar və hətta eyni məsələlərə yanaşma fərqli alınıb.

Almaniya Mülki Qanunnaməsindən götürülən fəsillərin bəzən bir qədər fərqli olması hiss olunur. Lakin bunun yalnız bir səbəbi var: bizim Mülki Məcəllənin hazırlanmasında alman mütəxəssisləri iştirak ediblər. Təbii ki, onlar Almaniya qanunvericiliyini bir qədər fərqli şəkildə öz təklifləri kimi irəli sürüblər. Nəticədə, Almaniya Mülki Qanunnaməsindən götürülən fəsillər yalnız kompozisiya baxımından bir qədər fərqlidir. Lakin ümumi məna eynidir. Əsas problem isə odur ki, alman mütəxəssislərinin təklifləri hərfi tərcümə edilərək, Mülki Məcəlləyə daxil edilib".

Əkrəm Həsənov Azərbaycanda mülki-hüquqi müqavilələrin strukturuna toxunaraq, onların üç qrupa bölündüyünü göstərir: 1) əmlakın verilməsi barədə müqavilələr; 2) işlərin görülməsi barədə müqavilələr; 3) xidmətlərin göstərilməsi barədə müqavilələr. İşlərin görülməsi ilə xidmətlərin göstərilməsinin fərqi nədən ibarətdir? İşlərin görülməsi üzrə təqdim edilən nəticə mütləq olaraq maddi xarakterli olmalı (maddi nəticə), yəni istənilən əşyanın hazırlanması və ya emalı, yaxud əşya üzərində hər hansı digər əməyin görülməsini nəzərdə tutmalıdır. Əks halda, söhbət işdən deyil, xidmətdən gedir. Öz növbəsində, xidmətlərin göstərilməsi müqavilələri üzrə nəticə (ideal nəticə) ola da bilər, olmaya da bilər.

Əslində, işlərin görülməsinə dair yalnız bir müqavilə növü var - podrat. Buna görə də həmin müqavilənin "iş" və ya "götürək iş", yaxud "işlərin görülməsi" adlandırılması daha yaxşı olardı. Xidmətlərin göstərilməsinə gəldikdə isə, demək lazımdır ki, bu tip müqavilənin növü çoxdur. Hətta Mülki Məcəllənin özündə də onların hamısını nəzərdə tutmaq qeyri-mümkündür.

Beləliklə, mülki-hüquqi müqavilənin tənzimləyici rolu onun qanun və normativ aktlara yaxınlaşdırır, tərəflərin iradəsini əks etdirərək, onların hüquqlarının müdafiəsini təmin edir. Bu tip müqavilələr universal xarakter daşıyır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# səs

Son səhifə 15 iyun


## İnək südü boy artımına səbəb olur

İnək südü ilə qidalanan uşaqlar digər heyvanların südünü və bitki çayı içənlərə nisbətən daha hündür olurlar. AZƏRTAC xəbər verir ki, alimlər 24 aylıqdan 72 aya qədər 5034 körpə üzərində apardıqları tədqiqatdan sonra belə bir qənaətə gəliblər: hər gün bir fincan inək südü içmək onlarda bir neçə millimetr boy artımına səbəb olur. Ona görə də həmin dövrdə inək südü içənlərin boyu digərlərindən 0,4 santimetr ucadır. Onların fikrincə, inək südünün tərkibində zülalın miqdarı çoxdur. İki fincan inək südündə 16 qram zülal var. Bu, 3 yaşlı uşağın sutkalıq zülal ehtiyacının tam təmin olunması üçün yetərlidir.



## ŞOK iddia: Evdə it saxlamaq uşaqda piylənmə riskini azaldır

London Universiteti əməkdaşlarının fikrincə, evdə it saxlamaq uşaqda piylənmə riskini azaldır. Alimlər İngiltərənin 78 ibtidai məktəbində 9-10-yaşlı 2,5 min uşağı müşahidə edərək, onların fəallıq səviyyəsini, yəni piyada qət etdikləri məsafəni, fiziki hərəkətlərə sərf etdikləri vaxtı tədqiq ediblər. Nəticələr göstərib ki, it saxlayan ailələrin uşaqları daha fəal həyat tərzi sürür. Onlar itlə gəzintilərdə həmişə valideynlərini müşayiət edir, üstünlüyü televizor və kompyuter qarşısında oturmağa deyil, heyvanlarla əylənməyə verirlər. Belə həyat tərzi uşaqların piylənmək və diabetə tutulmaq riskini xeyli azaldır, onların fiziki inkişafına uzunmüddətli müsbət təsir göstərir.



## Ətraf mühit bizə düşündüyümüzdən daha güclü təsir göstərir...

İşdən yorulanda bir-birimizə təbiət qoynunda dincəlməyi məsləhət görürük. İngiltərənin Bredford və Şeffild universitetlərinin alimləri sübut ediblər ki, bu, çox düzgün məsləhətdir. Təbiət mənzərələrini müşahidə etmək, məsələn, gölə baxmaq beyinin müxtəlif sahələri ilə əlaqəni yaxşılaşdırır. Daim şəhər mənzərələrinə baxmaq isə neyronlar arasında əlaqənin pozulmasına gətirib çıxarır. Təbiət səsləri, məsələn dalğa, yaxud yağış səsi beyində neyronların siqnalını yaxşılaşdırır. Tədqiqatçıların fikrincə, ətraf mühit bizə düşündüyümüzdən daha güclü təsir göstərir. O, təkcə psixikaya deyil, beyinin fəaliyyətinə də təsir edir.

## Oksford alimləri: Aşiq olmuş adam ən yaxın iki dostunu itirir...

Aşiq olmuş adam ən yaxın iki dostunu itirir. Oksford Universitetinin alimləri bu qərara gəliblər. Tədqiqatçılar 540 könüllü arasında sorğu keçiriblər. Onların "Aşiq olduqdan sonra yaxın dostları ilə münasibətlərində hansı dəyişikliklər olmuşdur" sualına cavabından məlum olub ki, insanın gündəlik həyatında müəyyən yer tutan beş dostu olur. Romantik münasibətlər yaranan kimi beş dostdan ikisi ilə əlaqə pozulur.

Oksford Universitetinin təkamül antropologiyası professoru Robin Danbarın fikrincə, sevgililərin həftədə azı bir də fə görüşdüyü, çətin məqamlarda dərdləşdiyi beş dostundan üçü qalır. Danbar sosial şəbəkələrdə tədqiqatlar aparır. O sübut edib ki, bir insan təxminən 150 nəfərlə ünsiyyətdə ola bilər.

## Madrid prokurorluğu Ronaldonu vergi fırıldaqçılığında ittiham edir




İspaniyanın "Real Madrid" klubunda oynayan portuqaliyalı futbolçu Kriştiano Ronaldo vergi fırıldaqçılığında günahlandırılır. Müvafiq ittihamla Madrid prokurorluğu məhkəməyə müraciət edib. Prokurorluq Kriştiano Ronaldonu 2011-2014-cü illərdə dörd vergidən yayınma epizodunda iştirakda şübhəli bilir. Bunlardan birində futbolçu 14,7 milyon avroluq vergi fırıldaqçılığında şübhəli bilinir. Hüquq mühafizə orqanlarında hesab edirlər ki, Ronaldo gəlirlərini vergi orqanlarından gizlətmək məqsədi ilə 2010-cu ildə xüsusi yaradılmış şirkətlər şəbəkəsindən istifadə edib.

## "Golden State Warriors" komandası ABŞ milli basketbol çempionatının qalibi olub

**ABŞ** milli basketbol çempionatının final seriyasındakı beşinci matçda "Cleveland Cavaliers" üzərində 129-120 hesabı ilə qələbə qazanan "Golden State Warriors" komandası çempion olub. AZƏRTAC Milli Basketbol Assosiasiyasının (NBA) saytına istinadla xəbər verir ki, "Golden State Warriors" final seriyasında ümumi hesabda 4-1 hesabı ilə qalib gəlib. Qarşılaşmanın ən məhsuldar basketbolçusu olan Lebron Ceyms aktivinə 41 xal, 13 ribaund və 8 assist yazsa da, bu onun komandasına çempion olmaq üçün kifayət etməyib.



Qalib komandanın heyətində ən məhsuldar basketbolçu Kevin Durant olub. Onun həlledici qarşılaşmadakı nəticəsi 37 xal, 7 ribaund və 5 assist təşkil edib. K.Durant NBA final seriyasında orta hesabla 35,2 xal, 8 ribaund və 5,4 assistlik nəticə ilə ən yaxşı oyunçu mükafatına layiq görülüb. Xatırladaq ki, bu, "Golden State Warriors"in son üç ildə ikinci çempionluğudur.

## Ozan Tufan "Valensiya"da oynayacaq



"Fənərbaxça" Ozan Tufanı "Valensiya" klubuna göndərir. SİA-nın məlumatına görə, türkiyəli yarımmüdafiəçi 1 il "yarasalar"ın heyətində icarədə oynayacaq. Mövsüm başa çatanda sonra ispanlar 15 milyon avroya onun transfer hüquqlarına yiyələnə bilərlər. "Valensiya" ötən mövsüm La Liqanı 12-ci pillədə başa vurub. "Fənərbaxça" ilə bu klubu tək Ozan Tufan bağlamır. "Sarı lacivərdlilər"in futbolçusu Mehmet Topal 2012-ci ildə "Valensiya"dan gəlmişdi. Na-ni isə ötən yay İstanbul klubundan "yarasalar"a qoşulmuşdu.

## "Jilina" millimizin üzvünü birdəfəlik transfer etmək istəyir

"Trabzonspor" futbolçusu Ramil Şeydayevi "Jilina"ya satmaq qərarı verib. SİA-nın məlumatına görə, bu haqda Türkiyənin "Fotospor" nəşri məlumat yayıb. Bildirilir ki, Slovakiya klubu son mövsüm 12 oyunda 6 qol vuran və 2 qol ötürməsi verən millimizin 20 yaşlı hücumçusunu birdəfəlik transfer etmək üçün Qara dəniz təmsilçisinə 500 min avro təklif edib. "Tranzonspor" isə əvvəlcə "Jilina"dan 2 milyon avro təzminat istəyib. Sonradan isə türk klubu Ramilin uyğun qiymətə transferinə razılıq verib. Xatırladaq ki, R.Şeydayev bu qış transfer dönəmində icarə əsasında "Tranzonspor"dan "Jilina"ya keçib.




Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500